Bu bir xalq qəzetidi

ƏDALƏT

## Ərdoğan İlham Əliyevə üzərində Xarıbülbül təsviri olan saatlar hədiyyə edib



**Oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər. Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər. Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular. Daha sonra dövlət başçıları söhbət etdilər.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Yaxından çəkin. Əziz qardaşım mənə bu gözəl saatları hədiyyə edib. "Xarıbülbül" təsviri də üstündə.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Şuşaya gəlmişdik. Buradan Şuşa yaxındır. "Xarıbülbül" də Şuşanın simvoludur.

**Prezident İlham Əliyev:** Bəli, çox sağ olun, təşəkkür edirəm.

## Ünvanlı dövlət sosial yardımının məbləği artırılır



**Azərbaycanda ünvanlı dövlət sosial yardımının məbləği artırılır. Ünvanlı dövlət sosial yardımının məbləği 170 manatdan 200 manata qaldırılır.**

Bununla bağlı sənəd Milli Məclisə daxil olub və növbəti iclasların birində müzakirə ediləcək.

Qeyd edək ki, ünvanlı dövlət sosial yardımının təyinində ehtiyac meyarı əsas götürülür. Hər bir ailə üzvü üçün ehtiyacı meyarı hazırda 170 manatdır.

Əgər ailədə 8 yaşından kiçik uşaq varsa, məşğulluq tələbi ana üçün tətbiq olunmur. Belə olduğu halda ata minimum əməkhaqqı, yəni 250 manat alırsa, o zaman ailənin ümumi ehtiyac meyarından bu məbləğ çıxılır və yerdə qalan məbləğ ünvanlı dövlət sosial yardımı şəklində verilir.

## Məktəblər noyabrda bağlanacaq?

**Sosial şəbəkələrdə müzakirələr zamanı noyabr ayından etibarən Azərbaycanda bütün orta məktəblərin bağlanacağı və yenidən distant təhsilə keçəcəyi iddia olunur.**

Adalet.az xəbər verir ki, təhsil nazirinin müşaviri Rüstəm Ağayev "Xəzər TV"də yayımlanan "Təsir Dairəsi" verilişində bu iddialara münasibət bildirib:

"Rəsmi onu deyə bilərəm ki, bu gün üçün belə bir qərar yoxdur. Hər şey yoluxma ilə bağlı rəqəmlərdən asılı olacaq.

ÜST-ün tövsiyəsi ondan ibarətdir ki, təhsil müəssisələri sonda bağlanmalıdır".

## Hərbçilərimizin Türkiyədəki təlimi başa çatıb



**Türkiyədə azərbaycanlı hərbçilər üçün təşkil olunan kursun bağlanış mərasimi keçirilib.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinə istinadən məlumat verir.

Qeyd edilib ki, Türkiyənin İsparta şəhərinin Eğirdir qəsəbəsindəki Dağ Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığının avqustun 23-dən oktyabrın 16-a qədər təşkil etdiyi "Əməliyyat Təlim Kursu" başa çatıb.

Təlimdə 383 azərbaycanlı hərbçi iştirak edib.

## BMT Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı rəhbəri Ağdama səfər edib

**BMT Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Guido Ambroso Ağdama səfər edib.**

Adalet.az-ın məlumatına görə, bu barədə Prezidentin Ağdam üzrə xüsusi nümayəndəsi Emin Hüseynov "Twitter" hesabında etdiyi paylaşımda bildirib.

"Bu gün BMT Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Guido Ambroso və rəhbərlik etdiyi nümayəndə heyəti Ağdama səfər edib və erməni vandalizmi nəticəsində dağıdılmış ərazilərin canlı şahidi olub" - deyə paylaşımda qeyd olunub.

## R.T.Ərdoğan: "Zəngəzurdan çıxıb İstanbula qədər gedəcəyik"

Bax: səh.2

## DİN vətəndaşlara müraciət etdi



**Daxili İşlər Nazirliyi (DİN) kibercinayətkarlıqlarla bağlı vətəndaşlara müraciət edib. DİN-dən verilən məlumata görə, qurum sosial media üzərindən edilən kibercinayətkarlıqlarla bağlı vətəndaşlarımızı diqqətli olmağa çağırır və aşağıda qeyd edilənlərə riayət etmələrini, ümumiyyətlə internet resurslarında ayıq-sayıq olmalarını xahiş edir:**

"- Mobil və şəhər nömrələrindən zəng edən şəxslərə bank kartlarınızdakı məlumatları, yəni kart sahibinin adı, soyadı, kartın son istifadə tarixi, CVV nömrəsi və təsdiq kodunu ("3D secure") heç kəsə təqdim etməyin. Hətta bu bank əməkdaşı olsa belə;

- Sosial media və elan saytları üzərindən satışa çıxardığınız məhsulları guya almaq məqsədilə özünün ölkədə olmadığını, həmçinin uzaq məsafədə olduğunu əsas gətirərək ödənişi onlayn yolla edəcəyini bildirən şəxslərə bank kartı məlumatlarını təqdim etməyin;

- İşə qəbul olunmağınızı əsas gətirərək guya "sağlamlıq haqqında arayış" üçün əvvəlcədən hansısa məbləğ tələb edən şəxslərə ödəniş etməyin;

- Saxta xarici nömrələrdən, həmçinin virtual nömrələrdən zəng edən şəxslərə bank kartı məlumatlarını təqdim etməyin;

- Alqı-satqı saytlarında hər hansı bir mənzili, avtomobili (telefon, geyim əşyaları, mebel və s.) dəyərindən çox aşağı qiymətə elana qoyan şəxslərə alacağınız əmlaka və məhsula baxış keçirmədən beh verməyin;

- "Giveaway" adlı yarışların qalibi olduğunuz barədə mesaj alsanız hədiyyənin çatdırılması (karqo) üçün ödəniş etməyin;

- "Xakker", "baxıcı", "faizə pul", "profillərin izlənilməsi" və bu kimi digər səhifələrə müraciət etməyin, hesablarına pul köçürməyin;

- Sosial şəbəkələrdəki tanımadığınız, etibar etmədiyiniz səhifələrdən alış-veriş etməyin".

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 93 (5925) 28 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

# Prezidentlər Zəngəzur dəhlizinin təməlini qoydular



*Oktyabrın 26-da Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur Dəhlizi) təməli qoyulub.*

*Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan əvvəlcə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış oldular.*

*Sonra dövlət başçıları Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur Dəhlizi) təməlini qoydular.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçılarına məlumat verdi.*

## Qarabağda sahibkarlar vergi və rüsumlardan azad ediləcək



**Qarabağda sahibkarlar vergi və rüsumlardan azad ediləcək. Bunu iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov çərşənbə günü İqtisadiyyat və Mədəniyyət nazirliklərinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun (ICYF) təşkilatçılığı ilə Azərbaycan İnvestisiya və Mədəniyyət Sammitində çıxışı zamanı deyib.**

O qeyd edib ki, azad edilmiş ərazilərin bərpası üzrə işlər dövlət-özəl tərəfdaşlığı çərçivəsində aparılır:

"Dövlət proqramı çərçivəsində 2025-ci ilədək inzibati idarəetmənin qurulması, hüquq-mühafizə fəaliyyəti, telekommunikasiya şəbəkəsinin yaradılması kimi işlər aparılacaq. Həmçinin, iqtisadiyyatın canlanması üçün dağ-mədən sənayesində istehsalatı və özünüməşğulluq formatında sahibkarlığı təşkil etməyi planlaşdırırıq. Sahibkarlar vergi və rüsumlardan azad ediləcək".

Nazir müavini bildirib ki, Azərbaycanın azad edilmiş ərazilərində genişmiqyaslı bərpa işləri aparılır:

"Bildiyiniz kimi, ərazilərimiz 30 il ərzində ermənilər tərəfindən dağıntılara məruz qalıb. Bu gün bizim həmin ərazilərin bərpası üzrə strategiyamız var. Bərpa konsepsiyası bütün regionun iqtisadi artımını sürətləndirəcək və əlavə investisiyaların cəlb olunmasına xidmət edəcək".

## Növbəti qəbul imtahanlarının mövzularında yeniliklər olacaq



**Növbəti qəbul imtahanlarında yeni region bölgüləri və işğaldan azad olunan ərazilərin tarixi haqqında suallar olacaq.**

Bunu Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadə açıqlayıb.

Onun sözlərinə görə, azad edilmiş ərazilərin işğal tarixləri ilə yanaşı azad olunması tarixləri də mövzularda öz əksini tapacaq.

"Yeni proqramlar müzakirə edilib və dərsliklər üzrə monitorinqlər aparılıb. Proqram dərc olunandan sonra epidemioloji vəziyyətə uyğun olaraq yanvarda sınaq imtahanlarının keçirilməsi nəzərdə tutulur".

## Azərbaycanda ölkə üzrə COVID-19-a yoluxma statistikası açıqlanıb



**Azərbaycanda ölkə üzrə COVID-19-a yoluxma statistikası açıqlanıb. Bu barədə koronavirusinfo.az saytı məlumat yayıb.**

Məlumata görə, ən yüksək yoluxma faizi yenə də Bakı şəhərində qeydə alınıb - 53,4 faiz.

Abşeronda 13,4 faiz, Aranda 12,4 faiz, Gəncə-Qazaxda 7,3 faiz, Şəki-Zaqatalada 3,6 faiz, Quba-Xaçmazda 3,3 faiz, Lənkəranda 2,5 faiz, Dağlıq Şirvanda 2,2 faiz, Yuxarı Qarabağda 1,5, Naxçıvanda 0,06 faiz təşkil edir.

Qeyd edək ki, indiyədək ölkədə ümumilikdə 520 068 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 486 426 nəfər müalicə olunaraq sağalıb, 6 939 nəfər vəfat edib, aktiv xəstə sayı 25 655 nəfərdir.

## DYP-dən xəbərdarlıq



**"Aparılan müşahidələr baş verən yol-nəqliyyat hadisələrinin təhlili onu deməyə əsas verir ki, piyadavurma hadisələrində sürücülərin əməlində təqsir daha çoxdur".**

Bunu Bakı Şəhər Dövlət Yol Polisi (DYP) İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli deyib.

O qeyd edib ki, bəzi sürücülərin tələskənliyi və məsuliyyətsizliyi ucbatından ağır faciələrə səbəb olan yol-nəqliyyat hadisələri baş verir: "Hər bir sürücü piyadalara münasibətdə qanunvericiliyin tələblərinə uyğun hərəkət etməlidir. Sürücü nizamlanmayan piyada keçidinə daxil olan piyadaya və yol ayırıcından sağa və sola dönərkən, dönəcəyi yolun hərəkət hissəsini keçməkdə olan piyadalara yol verməlidir. Əks təqdirdə, bu, inzibati məsuliyyət yaradır. Cəriməsi isə 50 manatdır".

"Sürücülər unutmamalıdır ki, "Yol Hərəkəti Haqqında Qanun" onların üzərinə hadisədən maksimum yayınmaq üçün öhdəlik qoyub. Yəni, sürücünün diqqəti olduqca önəmlidir. Sürücüləri bu tələblərə əməl etməyə və bədbəxt hadisələrə zəmin yaratmamağa çağırırıq. Kiçik bir diqqətsizlik sürücünün həyatını zülmətə çevirə bilər. Qaydalara əməl edək, özümüzü bədbəxt hadisələrdən qoruyaq", - o vurğulayıb.

## Yeni planet kəşf edilib

**NASA Süd Yolu qalaktikası xaricində, Yerdən 28 milyon işıq ili uzaqlıqda bir planet namizədinin kəşf edildiyini açıqlayıb.**

Yeni qalaktikada mümkün planet namizədin Saturnun böyüklüyündə olduğu bildirilir. Araşdırmanın başında duran Rosanne Di Stefano bildirib ki, "bu strategiya bizə başqa qalaktikaları da tədqiq etməyə imkan verə bilər". Di Stefano deyib ki, M51-1 adlı potensial planetlə bağlı araşdırmalar davam edir və bunu sübut etmək üçün daha çox müşahidələrə ehtiyac var.

## Vilyam Hacıyev xəstəxanadan təcridxanaya qaytarıldı



**Mərkəzi Gömrük Hospitalında koroavirus infeksiyasından müalicə alan İmişli rayon İcra Hakimiyyətinin həbsdə olan sabiq icra başçısı Vilyam Hacıyevin müalicə müddəti başa çatıb.**

Ədliyyə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, sabiq başçı Vilyam Hacıyev sağalaraq istintaq təcridxanasına qaytarılıb.

Xatırladaq ki, İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev ötən il mayın 5-də Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılıb.

İstintaq orqanı tərəfindən Vilyam Hacıyevin barəsində Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə, 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda), 311.3.3-cü (rüşvət alma (passiv rüşvətxorluq), külli miqdarda törədildikdə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan olunub.

## Saxta COVİD-19 pasportu satan xəstəxana rəhbərliyinə cinayət işi başlandı

**"Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsində qanunsuz olaraq "COVİD-19" əleyhinə vaksinasiya olunması barədə saxta sənədlərin tərtib edilməsi ilə bağlı daxil olmuş məlumat üzrə şəhər prokurorluğunda araşdırma aparılıb.**

Mingəçevir Şəhər Prokurorluğundan Adalet.az-a verilən məlumata görə, araşdırma ilə qeyd olunan xəstəxananın vəzifəli şəxsləri tərəfindən ayrı-ayrı şəxslərə vaksin vurulmadığı halda "COVİD-19"əleyhinə vaksinasiya olunması barədə saxta sənədlərin tərtib edilməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Mingəçevir şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

**Hazırda yuxarıda göstərilən cinayət əməllərinin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyən edilməsi məqsədilə intensiv istintaq hərəkətləri davam etdirilir.**

## Qazaxda narkotik alverçisi yaxalandı



**Qazax rayon Polis Şöbəsinə (RPŞ) rayon sakini, Şükür Məmmədovun qanunsuz olaraq satış məqsədi ilə narkotik vasitə olan marixuana əldə edib saxlaması barədə əməliyyat məlumatı daxil olub.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan verilən məlumata görə, məlumat ilə əlaqədar polis əməkdaşları təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirib və Ş. Məmmədov şətri alıcıya narkotik vasitə satarkən saxlanılıb. Onun üzərinə baxış keçirilən zaman 8 ədəd kibrit qutusunda olan "marixuana" aşkar edilərək götürülüb.

RPŞ əməkdaşlarının keçirdikləri digər bir əməliyyat-axtarış tədbirləri nəticəsində qanunsuz olaraq satış məqsədi ilə narkotik maddə əldə edib saxlamaqda şübhəli bilinən, rayon sakini Ceyhun Yahyayev saxlanılıb. Şübhəli şəxsin yaşadığı evə baxış keçirilən zaman oradan narkotik vasitə olan "heroin, "metamfetamin", "marixuana", güclü təsiredici gücə malik psixotrop həblər, şpirslər və bir ədəd elektron tərəzi aşkar edilərək götürülüb.

## Oxucuların nəzərinə

**Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

## Azərbaycanda təbii qazın qiyməti yenidən arta bilər?

***Azərbaycanda qazın qiymətinin bir ildə iki dəfə bahalaşması təbii qazın topdan satış qiymətinin bahalaşması ilə bağlıdır.***

***Adalet.az-ın məlumatına görə, bunu "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev deyib.***

***O qeyd edib ki, qazın topdan satış qiyməti pərakəndə satışa təsir edir:***

***"Qazın topdan satış qiymətində dəyişiklik edilməsi avtomatik olaraq pərakəndə satış qiymətini də dəyişir. Biz qazın pərakəndə satışını həyata keçirən təşkilatıq. Əgər nə vaxtsa qazın topdansatış qiymətində dəyişiklik olarsa, bu proses qazın pərakəndə satışına da təsirini göstərəcək".***

***Xatırladaq ki, Azərbaycanda son tarif dyişikliyinə əsasən qazla bağlı isə əhalinin illik istehlakının 1200 m3 -dək olan hissəsi üçün tariflər 10 qəpikdən 12 qəpiyə artırılıb.***

## GÜNÜN LƏTİFƏSİ

**Bir gün bir restorana kişi gəlir. Qarsona deyir bəs sizin soyuq çayınız var? Qarson deyir yox.**

Kişi çıxır gedir.

Hər gün bu hadisə 4-5 dəfə təkrar olunur. Axırı qarson bezib restoran sahibinə məsələni danışır.

O da deyir ki, çayı qoy dəmlənsin, sonra qoy soyuducuya, gələndə o kişiyə ver içsin.

Qarson belə də edir. Elə həmin gün kişi gəlir, deyir bala soyuq çayın var?

**Qarson yekə-yekə deyir hə. Kişi deyir onda qoy isinsin, gətir içək.**

# Prezident İlham Əliyev Miloş Zemanı təbrik edib



**Prezident İlham Əliyev Çex Respublikasının Prezidenti Miloş Zemana təbrik məktubu göndərib.**

Məktubda deyilir:

"Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Çexiya əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı əməkdaşlığın möhkəmlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram".

# Şəhid ailələri və qazilərlə bağlı "Zəfər" altsistemi yaradılır

**Prezident İlham Əliyev şəhid və şəhid ailəsi statusu almış şəxslərə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə və müharibə veteranlarına dair məlumatların mübadiləsi mexanizminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində "Zəfər" altsistemi (bundan sonra - altsistem) yaradılsın.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. altsistemin formalaşdırılmasını 1 (bir) ay müddətində təmin etsin;

2.2. bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan dövlət orqanlarının altsistemə çıxışını təmin etsin;

2.3. altsistemə daxil ediləcək məlumatların, habelə qanunla qorunan digər məlumatların mühafizəsinin təmin olunması üçün Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə zəruri tədbirlər görsün;

2.4. "Əlillik" (TSERAS) altsistemindən müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər barədə məlumatların altsistemə ötürülməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi altsistemin Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə ötürülməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanları:

4.1. altsistem formalaşdırıldıqdan sonra altı ay müddətində şəhid və şəhid ailəsi statusu, habelə müharibə veteranı statusu almış şəxslərə dair məlumatların altsistemə daxil edilməsini təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər;

4.2. şəhid və şəhid ailəsi statusunun, habelə müharibə veteranı statusunun verildiyi tarixdən 5 (beş) iş günü müddətində bu barədə məlumatın altsistemə daxil edilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 2.1.15-1-ci, 2.3.15-1-ci yarımbəndlər və 2.8-ci bənd əlavə edilsin:

"2.1.15-1. "Zəfər" altsistemi;

"2.3.15-1. şəhid və şəhid ailəsi statusu almış şəxslər, müharibə veteranları və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər barədə məlumatların "Zəfər" altsistemi vasitəsilə toplanması və sistemləşdirilməsi, habelə şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin və müharibə veteranlarının reyestrinin aparılması;";

"2.8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və yerli icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi statusu, habelə müharibə veteranı statusu verildiyi tarixdən 5 (beş) iş günü müddətində bu barədə məlumatı altsistemə daxil edirlər.";

5.2. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. MEİS-in strukturuna aşağıdakı reyestrlər daxildir:

2.2.1. "Məşğul şəxslərin" reyestri;

2.2.2. "Əlilliyi olan şəxslərin" reyestri;

2.2.3. "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin" reyestri;

2.2.4. "Müharibə veteranları" reyestri.";

5.3. 2.7-ci bənddə "tabeliyində" sözü "Tabeliyində" sözü ilə əvəz edilsin;

5.4. 2.3.5-ci yarımbəndə "eləcə də" sözlərindən əvvəl "əlilliyi olan şəxslərin reyestrinin aparılması," sözləri əlavə edilsin.

**Nazirlər Kabinetinə tapşırılır ki, bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.**

# *R.T.Ərdoğan:* "Zəngəzurdan çıxıb İstanbula qədər gedəcəyik"

**Oktyabr ayının 26-da Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağa növbəti səfəri uğurla baş tutub.**

Ən əsası isə Türkiyə liderinin təyyarəsi ilk dəfə olaraq birbaşa işğaldan azad edilmiş Füzuli rayonunda bir ildən də az müddətə, beynəlxalq standartlara cavab verən yeni inşa edilmiş Füzuli hava limanına enməsidir. "Zəfər Qələbəsi"ndən sonra artıq ikinci dəfə Qarabağa səfər edən Türkiyə Prezidenti Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyevlə yeni tikilmiş Füzuli Beynəlxalq hava limanının açılış mərasimində iştirak ediblər. Açılış zamanı bildirildi ki, hazırda Zəngilan və Laçında da beynəlxalq hava limanları tikilir və onların inşası ilə regionun nəqliyyat imkanları daha da genişləndiriləcək. Müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağından və Qarabağda həyatın yenidən çiçəklənəcəyindən, ümumilikdə sosial iqtisadi inkişafından xəbər verir.

Daha sonra Zəngilan rayonunda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma törəni təşkil olunub. Türkiyə Prezidentini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşılayıb. Zəngilanın Ağalı kəndində inşa edilən "Ağıllı kənd" layihəsinin həyata keçirilməsi ilə tanış olan Türkiyə Prezidenti "Azərbaycan bütün dünyaya örnək olacaq bir model ilə bu bölgənin inkişaf etdirmək üçün fəaliyyətini davam etdirir" - deyə dünyaya mesaj verib. Təməli qoyulan layihələrin, tunellərin, avtomobil yollarının bölgədə görülən işlərin miqyasını göstərmək baxımından çox önəmli olmasını vurğulayan Rəcəb Tayyib Ərdoğan əlavə edib ki, "Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm.



Podratçı firmaların işi ən yüksək təqdirəlayiqdir. Türkiyə olaraq, biz də bu fəaliyyətlərdə üzərimizə düşəni etməkdə, qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik". Türkiyə və Azərbaycan tərəfindən Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli-praktiki addımlar atıldığını bildirən Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bütün türk dünyası üçün ən önəmli faktorlardan biri olmasını bəyan etdi: "Gələn ay Azərbaycan Türk Şurasında sədrliyi Türkiyəyə təhvil verəcək. Əminəm ki, Türkiyə əziz qardaşımın rəhbərliyi ilə Şuraya uğurlu sədrlik edəcək. Türk dövlətləri arasında iş birliyi və qardaşlıq əlaqələri daha da güclənəcək və beləliklə, bütün türk dünyası üçün yeni imkanlar açılacaq".

Zəngəzur dəhlizinin açılmasına böyük önəm verən Azərbaycan Respublikasının Prezidenti bildirdi ki, bu dəhliz bütün türk dünyasını birləşdirəcək: "Həm Azərbaycan, həm də Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli-praktiki addımlar atır və əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir".

Azərbaycan Respublikasının qısa müddətdə işğaldan azad edilmiş ərazilərdə sürətlə geniş miqyaslı quruculuq-bərpa işlərinə başlaması, bir çox bizi istəməyən ermənipərəst dövlətlərin Azərbaycanın bu uğurlu addımlarına qısqanclıqla yanaşması gözlənilən idi. Bəzi qonşu dövlətlərin bu nailiyyətlərə, xüsusilə Zəngilan dəhlizinin açılmasına maneçilik törətmək çəhdləri uğursuzluğa uğradı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı qətiyyətli siyasəti qarşısında geri addım atmalarına səbəb oldu. Bizim özlərini başbilən hesab etdikləri bəzi müxalifət liderlərinin və xaricdə sorosların vəsaiti ilə bu uğurlara kölgə salmaq istəyən "internet qəhrəmanlarının" cəhdləri də nəticəsiz qalmaqdadır. İşğaldan azad edilmiş Qarabağda üç Beynəlxalq hava limanının inşa edilməsi (qeyd etdiyimiz kimi, Füzuli beynəlxalq hava limanı artıq fəaliyyətə başladı) layihələrinə, guya rentabelli olmayacaq kimi yanaşmaları, ya onların gerizəkalı olmalarından, ya da aldıqları tula payı qarşılığında qarayaxma kompaniyalarından başqa bir şey deyil.

Bu gerizəkalılar anlamaq istəmirlər ki, Qarabağda inşa ediləcək üç beynəlxalq hava limanı ölkəmizin təhlükəsizliyi baxımından, sonra isə gələcək perspektivdə həyata keçiriləcək daha böyük layihələrin həyata keçirilməsi üçün böyük əhəmiyyətə malikdir.

**Əvvəla, ölkəmizin təhlükəsizliyi heç bir maliyyə vahidi ilə ölçülə bilməz. İkincisi isə gələcəkdə bu limanların dəfələrlə rentabelli olacağı heç bir şübhə doğurmur. Artıq Ermənistanda separatçı qüvvələrlə yanaşı, bəzi siyasi qüvvələr məğlubiyyətləri ilə barışır və bölgədə sülhün alternativi olmadığı faktı ilə razılaşmaqdadır. Ermənistanın başqa çıxış yolu olmadığını bəyan edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bir daha qeyd etdi ki, bölgədəki inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla, Azərbaycanın bütün qonşuları istifadə edəcək: "Bu prosesdə sərhədlərin müəyyənləşdirilməsi və qaşılıqlı olaraq tanınması zəruridir. Mehriban qonşuluq münasibətlərinin əsasını da bu anlayış təşkil etməkdədir".**

**Rüstəm Hacıyev**

# Milyonların arzusunu dilə gətirən şəhid atası: "Azərbaycanın daimi Prezidenti"

**Ötən gün qarabağlıların həyatında önəmli , unudulmaz günlərdən biri di. Düz bir il əvvəl Azərbaycan Ordusu 30 ilə yaxın ermənistan silahlı qüvvələrinin və onların havadarlarının işğalında qalmış qədim Qubadlı elini azad ediblər Zəngəzurun qapısı sayılan Qubadlının azadlığı tək qubadlıların deyil bütün Azərbaycanı sevincə qərq etmişdi. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.**

Adalet.az xəbər verir ki, rayon nümayəndələri arasında şəhid Milli Qəhrəman Şükür Həmidovun atası Nəriman Həmidov da iştirak edirdi.

Nəriman Həmidov çıxışında Prezidentlə ikinci dəfərdir,şəxsən görüşdüyü üçün özünü xoşbəxt hiss etdiyini deyib: Mən Allah-Təaladan razıyam ki, Sizi Azərbaycana bəxş edib. Sizin kimi hərtərəfli sərkərdəni, şəxsiyyəti bizim Azərbaycana bəxş edib. Bizim xalqımız dövlət ətrafında yumruq kimi birləşdi və sözünü dedi. Bu hamısı Sizin rəhbərliyinizlə olmuş hadisədir, bunu hamı bilir. Siz polad sinəli, genişürəkli, əvəzsiz bir sərkərdəsiniz. Sizin keçdiyiniz yol, əldə etdiyiniz Qələbə mənim bu dediklərimə möhür vurur, təsdiq edir.

Mənim uzun müddətdir qəlbimdə gəzdirdiyim bir fikrim var, onu çatdıracağam. Mən bütün qədirbilən xalqımızdan xahiş edirəm, mənim fikrimi təsdiq etsin, alqışlasın. Bizim qanunverici orqanımız olan Milli Məclisdən xahiş edirəm ki, Müzəffər Ali Komandan, Prezidentimiz cənab İlham Əliyevə "Azərbaycanın daimi Prezidenti" adı verilsin. Xahiş edirəm ki, xalqımız da, Milli Məclis də bunu qəbul etsin.

***Şəhid atasının çıxışından duyğulanan Prezident İlham Əliyev də onunla görüşdüyü üçün şad olduğunu, iki deyil 3-cü dəfə görüşdüklərini yada salaraq bildirdi ki, Siz deyirsiniz ikinci dəfə, üçüncü dəfə biz görüşürük:" Mən sizi o vaxt Hərbi Qənimət Parkının açılışına da dəvət etmişdim"-deyə vurğulayıb***

"Ən böyük mükafat bax, sizin burada olmağınızdır, keçmiş köçkünlərin gözlərindəki sevincdir, qürurdur".

Daha sonra Azərbaycan Prezidenti el ağsaqqalı, şəhid atası Nəriman Həmidovun "Azərbaycanın daimi Prezidenti" arzusuna bir açıqlama da verib: Mən veto qoyacağam ona, mənim belə hüququm var. Çox sağ olun, təşəkkür edirəm, sağ olun. Bu səmimi sözlərə görə minnətdaram. Ancaq mənim üçün ən böyük mükafat bax, sizin burada olmağınızdır, keçmiş köçkünlərin gözlərindəki sevincdir, qürurdur. Budur mənim üçün ən bö-



yük mükafat. Mən demişdim, məcburi köçkünlərlə mən dəfələrlə görüşmüşdüm. İndi təsəvvür edin, 100-dən çox qəsəbə salındı, yəni, ev yox, məcburi köçkünlər üçün qəsəbə. Mən hər bir açılışda olmuşam, hər bir açılışda. Köçkünlərlə görüşlər zamanı, - mən onu artıq bir dəfə demişəm, bir daha demək istəyirəm, - gördüm ki, ümidlər azalır, ümidlər tükənir. Bu da təbiidir. Çünki artıq 30 ilə yaxın vaxt keçir, məsələ də həll olunmur. Artıq hər kəs başa düşürdü ki, Ermənistan bu məsələni danışıqlar yolu ilə həll etmək istəmir. Bu, məni çox incidirdi, çox üzürdü. O görüşlər məndə bir daha o inamı gücləndirirdi ki, biz nəyin bahasına olursa-olsun torpağımıza qayıtmalıyıq. Artıq o baxışlar yoxdur, o kədərli anlar yoxdur, o xatirələr qalır arxada. Artıq keçmiş məcburi köçkünlər ümidlə yaşayırlar, qürurla yaşayırlar. Mənim üçün ən böyük mükafat budur və bundan sonra ən böyük vəzifə bu torpaqları yenidən qurmaqdır, yenidən bərpa etməkdir.

Müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər, biz də hazırıq. İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda. Biz artıq göstərmişik ki, heç kimin qabağında baş əyən xalq deyilik. Ancaq bununla yanaşı, bizim qarşımızda çox böyük quruculuq işləri dayanır. Bu da müharibədə əldə edilmiş Qələbəyə uyğun səviyyədə aparılmalıdır. Ümumiyyətlə, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Çünki bu Qələbə bütün dünyaya bizim böyük xalq olduğumuzu göstərdi, eyni zamanda, bizi sözün yaxşı mənasında məcbur edir ki, biz qabağa ancaq düz yolla gedək. Bax, sizinlə bərabər, bütün Azərbaycan ictimaiyyəti ilə bərabər biz bu yolu gedəcəyik. İndi mən hansı statusda bu yolu gedəcəyəm, o, ikinci məsələdir. Əsas odur ki, ömrümün sonuna qədər mən bu yolla gedəcəyəm, İnşallah, sizinlə bərabər".

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir daha subut etdi ki, hər bir vətəndaşın prezidenti, hər kəsin əzizi, doğmasıdır. Xalqına layiq dövlət başçısıdır

**Torpaqlarımızı düşməndən azad edən Azərbaycan Ordusuna və onun Ali Baş Komandanına eşq olsun!**

**Əntiqə Rəşid**

# Öhdəliklərini unudan, regionu müharibəyə sürükləyən Ermənistanın "təsəlilə"si və cəzası

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən gün Qubadlılarla görüşdə dediyi sözlər erməniləri əməllicə qorxuya salıb**

Adalet.az xəbər verir ki, Prezident bildirib ki, müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər:

"Biz də hazırıq. İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda. Biz artıq göstərmişik ki, heç kimin qabağında baş əyən xalq deyilik".

***Digər tərəfdən isə ehtiyatda olan əsgər və zabitlərin toplanması, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən intensiz təlimlər erməniləri "papaqlarını qarşılarına qoyub " düşünməyə məcbur edib. Zəngəzur dəhlizi məsələsi, Ermənistan tərəfinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il bəyanatlarından irəli gələn tələblərin icrasını gecikdirməsi, Qarabağdan erməni silahlılarının çıxarmaması əlbəttə Azərbaycana qarşı ermənistan hökümətinin saymamazlığı kimi qiymətləndirilir***

O da maraqlıdır ki, 2020 -ci ilin hələ may ayında Paşinyan höküməti Şuşada yallı gedərkən böyük bir saymamazlıq etmişdi və o saymamazlığın bədəlini 44 günlük müharibədə çox ağır ödədi.

Əslində bu dəfəki saymamazlığının da bədəlinin ağır olacağını təxmin edirlər. Maraqlıdır ki, bilə-bilə saymamazlıq edirlər və nələrəsə arxayın olduqları bütün hərəkətlərindən bəllidir.

### *Ermənilərin təskinliyi nədir?*

***1-ci təsəlli:*** Erməni politolqlar Azərbaycanın hərbi gücdən istifadə imkanlarını istisna etməsələr də, bunu qarşısını Rusiya və İranın alacağı ilə təsəlli tapırlar. İranşünas Vardan Voskanyan bildirib ki, Azərbaycan 10 noyabr bəyanatının tələblərinin icrası üçün Zəngəzura hərbi müdaxilə edə bilməz, "belədə İran dərhal məsələyə qarışacaq".



***Cavab:*** Azərbaycanı tez-tez dağıdacağı ilə hədələyən İran Gürcüstanın, Türkiyənin, Pakistanın onun tərəfində durmadığını, Rusiyanın isə susmasını müşahidə etdi. Həmçinin indi İranı didib-parçalamağa hazır olan qərb ölkələri, xüsusən ABŞ İranın kiməsə hücum etməsini Allahdan arzulayırlar ki, onun hücumuna müdaxiləməqsədi ilə İranı vursunlar. Bu səbəbdən Azərbaycan- Ermənistan arasında baş verəcək növbəti qarşılaşmada İran təmkin nümayiş etdirərək, münaqişədən kənarda qalmağı üstün tutacaq.

***2-ci təsəlli:*** Erməni ekspertlər bir çoxu Ermənistan ərazisinin KTMT çərçivəsində Rusiyanın himayəsi altında olduğunu əsas gətirərək, Azərbaycanın buna risk etməyəcəyini iddia ediblər.

***Cavab:*** Əslində politoloqların fikrincə, KTMT-ni öz təhlükəsizliyini təmin edə bilməyən, müasir ordu yaratmağa nail olmayan və buna görə də Rusiyanın orbitində toplaşmağa məcbur qalan dövlətlərin klubu da adlandıra bilərik. Bu çarəsiz ölkələrin siyahısına uzun illərdir ki, Ermənistan başçılıq edir. KTMT Rusiyanın NATO-nun Şərqə doğru genişlənmsini mümkün qədər əngəlləmək məqsədilə yaradılan hərbi təşkilatdır.

Odur ki, KTMT-də söz sahibi olan Rusiya hansısa üzv ölkənin təhlükəsizliyinin təmin edilməsi vəzifəsini prioritet hesab etmir. Üzv dövlətlər isə daha çox Rusiyanın özündən qorunmaq və Kremlin imkanlarından yararlanmaqla təhlükəsizliklərini təmin etmək məqsədilə bu bloka daxil olublar. Zəngəzur dəhlizinin açılmasında Rusiyanın da marağı olduğunu nəzərə alsaq, ermənilərin bu təsəllisi də fiaskoya uğrayır.

Yeri gəlmişkən xatırladaq: KTMT çərçivəsində Ermənistana dəstək verəcək başqa bir dövlət olacağı inandırıcı deyil. Yaxın keçmiş olan ötən ilin sentyabr -oktyabr ayını yadınıza salın! Hansı KTMT məxsus ölkə Ermənistana ya qanuni, ya da qeyri-qanuni yardım etdi, dəstək göstərdi? Ordusu darmadağın edilmiş,mütəxəssislərin dediyi kimi 20 ilə özünə gəlməyə gücsüz olan Ermənistan ağlı olsa, Azərbaycan Prezidentinin mehriban qonşuluq və iqtisadi siyasətindən yararlanar, Zəngəzur dəhlizinin açılmasını tez bir zamanda həyata keçirər.

**Dünyada hər kəs, istər siyasətçi olsun, istər siyasətlə bağlı olmayan adi insan olsun, Ermənistanın saymazyana siyasət yürütdüyünün fərqindədir və bunun bədəlini ödəyəcəyi də heç kəsə sirr deyil.**

**Əntiqə Rəşid**

## *Bərdəyə raket hücumuna görə cavabdeh olanlar məsuliyyət daşımalıdırlar*

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Ermənistanın Bərdəni raket atəşinə tutmasının ildönümü ilə bağlı paylaşım edib.**



"Adalet.az" xəbər verir ki, C.Bayramovun "Twitter" səhifəsində etdiyi paylaşımda bildirilib:

"2020-ci ilin 27-28 oktyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərinə raket hücumları nəticəsində çox sayda günahsız dinc azərbaycanlı həlak olub. "Bu dəhşətli hücumun qurbanlarını dərin hüznlə yad edirik. Bu hərbi cinayətə görə cavabdeh olanlar məsuliyyət daşımalıdırlar!"

Xatırladaq ki, 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndi Ermənistan tərəfindən "Smerç" raketlərinin atəşinə məruz qalıb.

Hadisə nəticəsində dinc sakinlər - Cəfərova Ofeliya Məcid qızı, Əhmədova Aybəniz Əşrəf qızı, İsmayılov Ehtiram Xəlil oğlu, 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızı həlak olub, 10-dan çox şəxs yaralanıb.

**AYXAN**

## *Naxçıvana dotasiyalar artırılacaq*




**Gələn il Azərbaycan dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına dotasiyalar 2021-ci illə müqayisədə 14 faiz artaraq 431,6 milyon manata bərabər olacaq.**

"Adalet.az" xəbər verir ki, bu barədə "2022-ci il Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında" qanun layihəsində deyilir.

Qeyd edək ki, 2021-ci il dövlət büdcəsində Naxçıvan Muxtar Respublikasına dotasiyalar 378,13 milyon manat həcmində nəzərdə tutulur.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycan dövlət büdcəsinin gəlirləri, rəsmi proqnozlara əsasən, 2021-ci illə müqayisədə 5,4 faiz artaraq 26,82 milyard manat təşkil edəcək.

Dövlət büdcəsinin xərcləri isə gələn il 29,89 milyard manata bərabər olacaq. Bu, 2021-ci illə müqayisədə 4,7 faiz çoxdur.

## *Azad olunmuş ərazilərin bərpasına 2.2 milyard ayrılacaq*

**Gələn il işğaldan azad olunmuş ərazilərin bərpasına ayrılması planlaşdırılan vəsaitin həcmi açıqlanıb.**



"Adalet.az"-ın məlumatına görə, Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında qanun layihəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün gələn ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. 2021-ci ilin dövlət büdcəsindən isə bu istiqamətdə 2 milyard manat vəsait ayrılmışdı.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycan dövlət büdcəsinin gəlirləri, rəsmi proqnozlara əsasən, 2021-ci illə müqayisədə 5,4 faiz artaraq 26,82 milyard manat təşkil edəcək.

Dövlət büdcəsinin xərcləri isə gələn il 29,89 milyard manata bərabər olacaq. Bu, 2021-ci illə müqayisədə 4,7 faiz çoxdur.

**İLTİFAT**

## Özgə torpağına milyardlarlıq sərmayə qoyan ermənilərin hazırki dilənçi halı: 9 milyard dollarlıq borc

**Ötən gün Ermənistan mətbuatına istinadən belə bir xəbər yayılmışdı ki, Ermənistan 2022-ci il üçün dövlət büdcəsi layihəsi parlamentdə müzakirə olunub:"Büdcə layihəsində Qarabağın sülhməramlı qüvvələrin müvəqqəti nəzarəti altında olan hissəsinə yardım paketi də müzakirə olunub.**

Rəsmi İrəvan gələn il Qarabağa 303 milyon dollar yardım etməyi planlaşdırıb. Həmin vəsait maaş və pensiyaların ödənilməsinə, infrastruktur layihələrinə sərf olunacaq. 2021-ci ildə yardımın məbləği 136 milyon dollar təşkil etmişdi". Adalet.az erməni mediasın istinadən xəbər verir ki,. Ermənistanın dövlət borcu artaraq 9 milyard dollar həddini keçib.




Məlumata görə, sentyabrın 30-na olan dövlət borcu 9 milyard 31 milyon dollar təşkil edib. Avqust ayı ilə müqayisədə bu rəqəm 86 milyon, il kontekstində isə 1 milyard 184 milyon dollar artım deməkdir. Dövlət borcunun böyük hissəsini hökumətin xarici borcu təşkil edir ki, bu da 8 milyard 564 milyon dollar məbləğindədir. Bu məbləğə xarici kreditlər və borclar, qeyri-rezidentlər tərəfindən alınmış qiymətli kağızlar və xarici valyuta istiqrazları daxildir. Hökumətin daxili borcu 2 milyard 372 milyon dollardır. Buraya daxili kreditlər və dövlət xəzinə istiqrazları və dövlət valyuta istiqrazlarının rezidentləri tərəfindən alınmış borclar daxildir. Dövlət borcunun 473 milyon dramı Mərkəzi Bankın borcudur" - qəzet yazıb.

***P.S.*** ***1994-cü ildə Ermənistan atəşkəsin əldə olunması və hərbi əməliyyatların dayandırılmasından sonra işğal etdiyi Azərbaycan ərazilərində - Dağlıq Qarabağda və ona bitişik ətraf rayonlarda demoqrafik strukturu süni şəkildə dəyişdirmək siyasətini həyata keçirməyə başladı.Qarabağdan qovulmuş azərbaycanlıların yerini Suriya və Livandan gətirilmiş erməni ailələr tutdu.Təkcə Zabux kəndi ərazisində Aqavno adlı yeni qəsəbə 70 evdən ibarətdir ki, bu da Livan ermənilərinin maliyyəsi hesabına inşa edilib.Eyni zamanda təkcə 116 kilometr uzunluğundakı Vardenis-Ağdərə yolunun tikintisi 30 milyon dollar dəyərindədir. Əhalinin süni şəkildə çoxaldığını görən Ermənistan milyardlarla dollarından keçərək başqasının torpağında - Qarabağda qəsəbələr, turbazalar, otellər, məktəblər, poçt şöbələri, kilsələr, hərbi hissələr, həmçinin 24 ədəd su anbarı və SES tikmişdilər. Hətta 2018-ci ildə Avropalı investorlar Azərbaycanın işğal altındakı Sərsəng su anbarı yaxınlığında tikiləcək yeni anbar üçün 100 milyon dollar pul ayırdı. Dünyada yaşayan erməni milyonçularının , erməni diaspora təşkilatlarının, lobbiçilərinin Qarabağa, Ermənistanın inkişafına qoyduğu yatırım və ianələri də hesablasaq gərək ki, Ermənistanın borcu bu qədər olmayaydı. Bir sözlə, başqasının torpağına maya qoymaqdansa, öz daxili və xarici borclarınızı azaltmış olsaydınız, indi də hazır ki. durumla bağlı ağlaşma -şüvən salaraq "məzlum"və bədbəxt olduğunuzu dünyaya hayqırmazdınız.***

***Əkdiyinizi biçin!***

**Əntiqə**

# Təqdimatı sevməyən yazıçı-publisist

## Nemət Veysəlli ilə günümüzün söhbəti

*Həmsöhbətimi sizə təqdim etməyə ehtiyac duymuram. Ona görə ki, Azərbaycanda sözlə, mətbuatla təması olan publisistikanın mahiyyətini bilən hər kəs Nemət Veysəlli imzasını tanıyır. Asta-asta danışmağı, elə danışdığı kimi də fikirlərini, düşüncələrini oxucuya hopdurmağı bacaran Nemət Veysəlli yazıçı-publisist kimi sözə çiyin verib, onu həmişə üst qatda saxlayıb. Və şəxsən mən hər gün öyrəndiyim Nemət Veysəllinin yazısına, publisistikasına aşağıdan yuxarı baxıram. Bu baxışda həm sevgi var, həm də bir az yumşaq desəm, həsəd. Elə bu yerdə onu da xatırladım ki, Nemət Veysəlli təkcə qələmi ilə, düşüncələri ilə, yazıçı-pozusu ilə deyil, həm də öz varlığı ilə vətənə bağlı adamdır. Təsəvvür edin ki, yaşının 50-ni ötüb 60-a tərəf yol getdiyi zamanda o, Bakıdan, isti ev-eşiyindən, populyar "Ulduz" jurnalındakı şöbə müdiri vəzifəsindən ayrılıb, birinci Qarabağ müharibəsinə hərbi jurnalist kimi getdi və səngəri də, ölüm-itimi də, barıt qoxusunu da, hətta, sinəsinə sıxıb ağladığı yaralının, şəhidin son sözlərini də eşitdi...*

*Bu qısa təqdimatdan sonra keçirəm mətləbə. Demək istəyirəm ki, həmişə özümə ağsaqqal, həm də müəllim saydığım Nemət Veysəlli ilə söhbət etmək mənim üçün çox asanddır. Çünki Nemət Veysəlli özü adamı danışdırır. Üstəlik, o elə bir şərait yaradır ki, həmsöhbəti şəraitə deyil, Nemətin ovqatına köklənir. Və beləcə bir də baxırsan ki, vaxt əriyib gedib, yaddaşda da Nemət Veysəllidən, sözün yaxşı mənasında "çırpışdırdığım" xatirələr, fikirlər, örnəklər qalıb. Elə bu söhbətimizdə də belə oldu:*

**- Nemət müəllim, biz və eləcə də bütün vətəndə vətənsiz olan qaçqın, köçkün soydaşlarımız nəhayət ki, yurda dönüşün başlanğıcındayıq. İkinci Qarabağ savaşı böyük Zəfərlə bizə qələbənin dadını yaşatdı. İndi geriyə - yurda köç dövrüdü. Yəni, onun astanasındayıq...**

- Əbülfət, gəl belə danışaq. Mən içimdəkiləri deyəcəm, qalanını özün necə bilirsən, elə də sıralayarsan...

**- Buyurun.**

- Əvvəlcə başlayıram redaktor məsələsindən. Mən ömrümün çox hissəsini mətbuata həsr etmişəm və birmənalı şəkildə deyirəm ki, bütün sahələr üzrə kadr tapmaq mümkündür, yalnız redaktordan başqa. Redaktor olmaq, redaktor tapıb ortaya çıxarmaq çox çətin məsələdi. Azərbaycan mətbuatında mənim gördüyüm Anar, Cəmil Əlibəyov, Nəriman Həsənzadə, İntiqam Qasımzadə və sənin işlədiyin "Ədalət" qəzetinin redaktoru - Aqil Abbas. Bu adamlar qəzeti də, qəzetçiliyi də bildikləri kimi, onu nüfuzda saxlamağı da çox gözəl bacarıblar. Son 30 ildə mən nə yazmışamsa, onun demək olar ki, hamısı "Ədalət" qəzetində çap olunub.

Mən hansı xarakterin sahibiyəm, özün bilirsən. Yəni məndə kiməsə yarınmaq yoxdur. Artıq 80-i də haqlamışam, bundan sonra da heç kimə yarınası deyiləm.

Bunu ona görə vurğulayıram ki, mənim Aqil Abbasa, onun "Ədalət" qəzetinə hörmətim yalnız mətbuatdakı dürüst yoluna görədir. Hətta məndən soruşublar ki, Nemət, sənin bu yazılarını çap edən qəzet nədənsə narahatlıq keçiribmi? Demişəm ki, onu redaktordan və qəzetdən soruşun. Bilirsən niyə? Ona görə ki, mən heç bir yazını nəyinsə xatirinə və ütülü yazmıram. Ütülü olmayan yazı da tək-tək redaktorun xeyir-duasını alır. Bax, bu səbəbə görə mən cəsarətli redaktorlara həmişə sayqı ilə yanaşmışam.

Hə, indi gələk sənin dediyin məsələyə. Yəni, yurdumuza dönüşə. Mən Yuxarı Veysəllidə uşaqlığımı, xatirələrimi,



anamın qoxusunu, atamın ruhunu qoyub gəlmişəm. Tağbəndimiz qalıbdı, divarımız qalıbdı, ağaclarımız qalıbdı. Bunların hamısı üçün çox darıxmışam. Müharibə dövrü yaşadıqlarım, şahidi olduğum hadisələri yazanda mən o torpağı qarış-qarış tanıyan qələm adamı kimi təkcə yazı borcunu yerinə yetirmək xatirinə yox, həm də olanları gələcəyə ötürmək üçün heç nəyi gözdən qaçırmamağa çalışmışam.

Bir az açıq deyim. Bakıda, Sumqayıtda, hansısa bir bölgədə oturub Qarabağdan, müharibədən yazmamışam. İndi də həmin şəhid, baş leytenantın səsi qulağımdadır.

Yaralı vəziyyətdə sinəmə sıxmışdım, dedi ki, müəllim, sizi and verirəm Allaha, olanları, gerçəkləri yazın. Qoy, bilsinlər ki, biz havayı güllənin qurbanları deyilik, biz döyüşmüşük.

**- Nemət müəllim, mən cəbhədə, döyüş bölgəsində sizin nələrdən keçdiyinizi və onların samballı kitablara çevrildiyini yaxşı bilirəm. Bu barədə sizinlə mübahisə etmək mənə görə ağılsızlıq olar. Lakin etiraf edək ki, ikinci Qarabağ müharibəsi bizi kimliymizə qaytaran müharibə oldu. Birinci müharibədə biz fərd idik, ikincidə millət, xalq olub döyüşdük...**

- Doğru deyirsən, mən ikinci müharibənin getdiyi günlərdə Beyləqanda idim. Ordan Horadizə getdim. Elə istəyirdim ki, səngərə atım özümü. Orda baş verənləri üç addımlıqdan izləsəm də, döyüşə gedənlərin təbəssüm dolu sifətləri, onlardakı ruh yüksəkliyi və bir də yol boyu keçən hərbi kalona adamların verdiyi paylar - kimi siqaret, kimi meyvə, kimi çörək və s. uzadırdı - məni uşaq kimi ağlatdı.

Düzdü, əsgərlərin ona ehtiyacı yox idi. Adamlar əsgərlər üçün nəsə eləmək istəyirdi. Bax, onda inandım ki, döyüşən oğulun yanında təkcə ata-anası yox, həm də bütün xalq dayanıb. O əsgər qalib gələcək və qalib də gəldi!

**- Nemət müəllim, biz köçün nə olduğunu bilirik...**

- *(sözümü kəsir)* Bilirəm, yadımdadı. Əvvəl də bu məsələyə toxunmuşdun. Yadımdadı, Horadiz-Beyləqan yolu. Cəbrayıldan, Zəngilandan, Füzulidən, Hadrutdan qovulanlar. Sənə bir detalı deyim. Bir araba gəlirdi. Arabaya başqa bir qoşqu da qoşulmuşdu. Onun içərisində bir neçə toyuq-cücə, iki quzu və bir də balaca bir qız uşağı oturmuşdu. Sən bu mənzərəni təsvir edə bilirsən? İnsan evindən qovulur və özü ilə apardığı bunlardır. O qız uşağının baxışları bu gün də gözümün önündədi və bu gün də yuxumdan çıxmır. Bəlkə də o qız indi ailə sahibidi və yəqin ki, üzü geri qayıdanda baxışları tamam fərqli olacaqdır. O ki, qaldı mənim başlanan böyük köçlə bağlı fikirlərimə... Mən dövlətdən heç nə istəmirəm, yazıçıyam, övladlarım böyüyüb, təqaüd alıram. Sadəcə bircə istəyim var. Kəndimdəki həmin yerdə atamın, anamın ruhu dolaşan o ünvanda öz bünövrəmin üstündə gücüm çatan bir ev tikim. Daşı da özümdən, qumu da özümdən, hətta fəhləliyi də özüm edərəm. Bilirsən ki, Bakıda müəyyən şəraitim var, amm yaşımın bu çağında ora qayıtmaq, o evin tağbəndində oturub xəyala dalmaq, o evin pəncərəsindən ətrafa baxmaq ən şirin arzularımdandır. Hələ ki, dizimdə təpər, qolumda güc var.

Kəsilən ağaclarımızın yerinə ağac da əkə bilərəm. həyət-bacamızda səliqə-səhman da yaradaram. Təki Yuxarı Veysəllidə, öz daşımın üstündə oturum. Mən Nemət Veysəlli ilə etdiyim söhbəti diktafona yazmışdım. Amma bu yazını kağıza köçürəndə diktafonu qoydum bir kənara. Bəlkə də buna görə də Nemət müəllim məndən inciyəcək.

Amma içimdən bir səs gəldi ki, Nemət Veysəlli ilə etdiyim söhbətdən yaddaşımda qalan, sənin ruhuna hopan nə varsa, onu yaz. Mən də belə etdim.

Və sonda "Ədalət"in oxucularına onu da demək istəyirəm ki, artıq 80 yaşını haqlamış müharibə veteranı Nemət Veysəlli yazıçı-publisist kimi, ziyalı kimi, təkcə doğulduğu Yuxarı Veysəlli kəndini yox, həm də bütün Azərbaycanı çox yaxşı tanıyır.

Üstəlik, bu insanın yaddaş kartında yurdumuzun, adamlarımızın, qaçqınlığımızın, müharibəmizin elə anları yaşayır ki, onun hər biri barəsində saatlarla danışmaq mümkündür. Xüsusilə Nemət Veysəllinin birinci Qarabağ müharibəsinə aid xatirələri özünün kitaba çevrildiklərindən də qat-qat çoxdur. Və düşünürəm ki, Nemət Veysəlli o yaddaş kartındakılardan hələ bizə çox yazacaq və çox danışacaqdır. Yəni, onunla yenə həmsöhbət olacağıq.

**Əbülfət MƏDƏTOĞLU**

MÜHARİBƏ GÜNDƏLİYİ

# Bütün analar məğlubdu



*Emin Piri*

**İstər təbii fəlakətlər, istərsə insan əməliylə törədilən cinayətlər, faciələr; aralarında ən dəhşətlisi müharibədir. Zəlzələ, vulkan püskürmələri və.s insandan aslı olmayan səbəblərdir. Amma ən dəhşətli faciənin-müharibənin elə insan əliylə törədilməsi insanın, insanlığın nə qədər qəddar bir varlıq olmasının nümunəsidir. Bir insan niyə müharibə arzulasın?Bir şəxs niyə vəhşiliyin tərənnümü ilə məşğul olsun?**

**Siz heç müharibədə sevgilisini itirmiş bir qızın gözlərindəki dəhşəti görmüsünüz? Və ya övladı həlak olmuş bir ananın gözlərində sonucu ümidin də ölməsini…. O sonuncu ölən ümid elə bəşəriyyətin ölümüdür.**

**Müharibə son variant, son gedişdir. Bütün mübahisələr və.s-də. Təəssüf ki, bəzən son gedişə insanları möhtac buraxırlar. Elə bizim kimi… Ermənistan və dostlarının bizi məcburiyyət qarşısında müharibəyə başlamağa möhtac qoyduğu kimi…**

**Müharibənin sadə bir detalla az qala vəhşiləşmiş( bunu deyərkən küçümsəmək anlamında deyil, müharibə dəhşətlrinin insan hislərini korlaşmasını nəzərdə tuturam)əsgərlərin bir yanaşmasını qeyd edərdim.**

**Müharibə dövründə cəmi iki dəfə ağlamışam. Birinci 27 sentyabrda ilk qələbə xəbərləri gələndə sevincimdən.**

**İkincidə isə 22 oktyabrda. Cəbhəyə gedəndən çimməmişdik, 22-ində geriyə, Cəbrayıl rayonunun Daşkəsən kəndinə göndərildik ki, çimək.**

**Orda hərəmizə plastik torbada bir paket verdilər. İçində siqaret, çörək arası kotlet, corab və.s. Dedilər ki, bir şəhid anası oğlunun pulunu cəbhədəkilərçün qurbanlıq deyib...Əsgərlər ağlaya-ağlaya yeyirdi...**

**Müharibələrdə ya qalib, ya məğlub olarsan, amma dünyanın bütün anaları müharibədə məğlubdu...Deməsələr də, bildirməsələr də, içində ağlasalar da, övladı sağ qayıtsa da...**

**Bütün analar məğlub olur, sadəcə məğlub!**

# İlham, atam Sarvan və mən...



**Cəsurluq məktəbinə, qəlbində Vətən qalası tikməyə gəlmiş bu yaraşıqlı oğlanın şəklini çəkdim ki, haqqında yazacağım yazıya da işığı düşsün. Bir ocaqdan , bir soydanıq , bircə evimiz ayrıdır, amma yurd, məmləkət adlı yuva da eyni... Deyir, dayı, gözlə papağımı da başıma qoyum, papaqsız şəkil olmaz.**

Seymur Ağayev bu il arzuladığı ünvana yetişib. Təməlini ulu öndər Heydər Əliyevin qoyduğu Cəmşid Naxçıvanski Adına Hərbi Litseyin 1-ci kursuna qəbul olub. Hərbi dildə desək, indi ona kursant Seymur Ağayev də demək olar.

Seymurgilin ailəsi yığcam bir ailədir. İsmi dövlət başçısına sevgidən yaranmış İlham adlı böyük qardaşı savadlı mütəxəssis olmaq üçün ali məktəbə hazırlaşır. Gələcəkdə o da cəmiyyətimizə, Vətənimizə faydalı bir gənc kimi Azərbaycan gəncliyinin sıralarına qoşulacaq. Seymurun atası Sarvan zəhmətkeş bir ailə başçısıdır. Ailəsinin bütün çətinliklərini qarşılamaq üçün yorulmadan işləyir. Hərdən çətinliklərdən gileylənəndə onu inandırmağa çalışırdım ki, darıxma, vaxt gələcək övladların böyüyəcək, cəmiyyətimizə fayda verməklə yanaşı, sənə də arxa-dayaq olacaqlar. Bu günlərdə onun simasındakı xoş, inam dolu təbəssümü də gördüm. Oğlu Seymur hərbi məktəb şagirdi olmuşdu. Onu hərbi geyimdə görmək atasına həddən artıq qürur gətirmişdi. Seymurun anası Könül xanım isə əlləri şəfqətlə dolu bir tibb işçisidir. Əvvəllər olduğu kimi, pandemiya dövründə də onlarla, yüzlərlə xəstənin həyata dönməsinə vəsilə olub.

Seymurun Azərbaycan hərb tarixinin təcrübə və ənənələri üzərində qurulmuş Cümşüd Naxçıvanski adına hərbi litseyə qəbul olması anasını da çox sevindirib. Sevinci mənimlə bölüşərkən Seymurla bir yerdə şəkil də çəkdirdik. Seymur uşaqlıqdan inadkar və prinsipal idi. Yaxşı şahmat oynamağı var. Uduzmağı da heç sevmir. Mənimlə şahmat oynayarkən hərdən uduzurdu da, amma bu vaxt evlərində bir hay-küy, mərəkə qopurdu ki... Uşaq ayaqlarını evin döşəməsinə döyüb uduzmasıyla barışa bilməməsinin üsyanına qalxırdı. Deyim ki, şahmatla yanaşı, o, dəqiq və humanitar elmləri yaşına görə yaxşı mənimsəyib. Keçmişimizin, dünənimizin, elə bu gün isti-isti yazılan tariximizin səhifələrini də hər zaman sevgiylə oxuyur. Orasını da deyim ki, Seymurun ata və ana tərəfindən 44 günlük müharibədə və müharibə dönəmində hərbi xidmətlərini nümunəvi şəkildə başa vurub qayıdan nə qədər gənc qohumu var. Hansı ki, həmin gənclərin hər biri ya ayrı-ayrı bölük komandirləri tərəfindən, ya da birbaşa dövlət başçısının sərəncamıyla mükafatlandırılıblar.

Bir sözlə, Seymur həm də davamçıdır. Yurda, Vətənə, bayrağımıza sevgi dolu ailə ənənələrinin davamçısı olaraq hələ bərkiməyib. Uşaq kövrəkliyi hələ üstündədir. O, bərkiyəcək, möhkəmlənəcək, hərbin dərin sirlərinə bələd olub yüzlərlə Vətən oğlu kimi düşmən siperinə dönəcək.

**...Artıq Seymur Qarabağa böyük qayıdışımızı həm bir uşaq, həm də bir hərbçi sevinci, vüqarıyla gözləyir. Deyir ki, Qarabağa qayıdan böyük köç karvanının önündə biz də olacağıq - İlham, atam Sarvan və mən.**

**Fariz ÇOBANOĞLU**

# Soyuq havalar...

## Belə havalar pandemiyanın yayılmasına münbit şərait yaradır

**Artıq bir neçə gündür ki, ölkəmizdə hava şəraiti kəskin surətdə dəyişib, temperatur əvvəlki vaxtlara nisbətən 9-10 dərəcə aşağı enib. Bu barədə öncədən hidrometeroloqlar aidiyyatı qurumları və əhalini xəbərdar etmişdi. Ona görə də həm əlaqədar qurumlar, həm də əhali bu cür hava şəraitinə tam hazır idi.**

İndi qayıdaq soyuq havalarla bağlı yaranan çətinliklərə. Aydındır ki, hələ oktyabr ayının axırlarıdır. Və Azərbaycanda istilik sistemlərinin fəaliyyəti noyabrın 15-dən işə düşür. Yəni, noyabrın 15-nə qədər "Azəristiliktəchizat"ın şəhərlərə, qəsəbələrə və digər yaşayış yerlərinə istilik verməsi bir o qədər də ağıla batan deyil.

Hansı ki, oktyabrın 26-da və 27-də ölkə ərazisində hava şəraiti çox soyuq keçib, hələ bəzi Şimal bölgəsinə ilk qar yağıb. Təbii ki, belə bir şəraitdə ümumtəhsil məktəblərində və eləcə də uşaq bağçalarında şagirdlərin, bağçada olan uşaqların istiliyə daha çox ehtiyacı var. Çünki həmin günlər həm Bakı şəhərində, həm də Şimal bölgələrində məktəblilər və bağçadakı uşaqlar soyuqdan çox əziyyət çəkib. Hələ biz əhalini demirik. Onları da desək, aydındır ki, haqlı mövqe tutarıq.

Hələ də bizim bir çox qurumlar Sovet dövründəki rejimdən yaxalarını qurtara bilmirlər.

Sovet dövrünün yaxşı ənənələrini davam etdirmirlər, amma pis xüsusiyyətlərini bəh-bəhlə yaşadırlar. Məsələn, elə götürək mənzillərə, müəssisələrə, təhsil ocaqlarına və uşaq bağçalarına istiliyin verilməsini. Oktyabrın 26-da müxtəlif televiziya kanallarında göstərilən sujetlərə inansaq, görərik ki, elə həmin günü Bakının məktəb və uşaq bağçalarında uşaqlar çox əziyyət çəkiblər. Xüsusən də ibtidai sinif şagirdləri bu cür havada üşüyür, dərsə getmək istəmir və üstəlik də xəstəliyə tutulurlar.

Aydındır ki, payız aylarında resperatur virusların çoxalması müxtəlif xəstəliklərin yayılmasına, o cümlədən insanların qripə yoluxmasına əlverişli şərait yaradır.

Çox təəssüf ki, əlaqədar qurumlar bu anı heç vaxt nəzərə almır və qabaqlayıcı tədbirlər görmürlər. Axı dünyada və ölkəmizdə bu gün pandemiyanın yeni dalğası hiss olunur. Yəni hər gün koronavirusa yoluxanların sayı get-gedə artır, eləcə də ölənlər çoxalır. Bu isə həyəcan təbilinin çalınmasıdır. Yəni xəstəliyə qarşı bütün profilaktik tədbirlər öncədən aparılmalıdır.

Biz noyabrın 15-ni gözləməli deyilik. Əgər hava şəraiti bu cür davam edərsə, bütün ölkədə istilik sistemləri işə düşməlidir.

Bütün qazanxanalar işlək vəziyyətində olmalıdır. Təəssüf ki, "Azəristiliktəchizat" qışa tam hazır deyil. İstiliyin verilməsi ilə bağlı məlum qurumun məsul şəxsi bildirib ki, biz təkbaşına bu məsələni həll edə bilmərik. Yəni, əhaliyə havanın soyuq keçməsinə baxmayaraq, vaxtından tez istilik verməyə gücümüz çatmır. Bu məsələdə digər qurumlar da bizə köməklik göstərməli və birgə hərəkət etməliyik. Bundan sonra vaxtından tez istilik vermək mümkün ola bilər.Göründüyü kimi, "Azəristiliktəchizat"ın məsul şəxsi fikrini cəmiyyətə belə çatdırır. Bəlkə də o, mövqeyində ədalətlidir. Çünki hər şeyi məlum qurumun üstünə atmaq da düzgün deyil. Bu işdə "Azəriqaz", "Azərsu" və digər qurumlar "Azəristiliktəchizat"a kömək göstərməlidir.



Çünki məlum qurumların bir-birinə milyonlarla borcu var.

Gəlin, açıq danışaq. Əhalinin böyük hissəsi ötən il işlətdiyi istiliyin pulunu hələ də verməyib. Bu pul da məlum qurumun bank hesabına keçməyəndə, təbii ki, "Azəristiliktəchizat" nə borclarını verə bilir, nə də əməkdaşlarının əmək haqqını. Aydındır ki, belə bir durumda vəziyyət daha da çətinləşir və mürəkkəbləşir. Aidiyyatı qurumların və digər səlahiyyətli şəxslərin dediklərinə görə, istiliyin vaxtından tez verilməsi Nazirlər Kabinetindən asılıdır. Əgər Nazirlər Kabinetinin qərarı olarsa və digər qurumlar da bu məsələdə öz üzərinə düşən vəzifəni yerinə yetirərsə, onda əhaliyə, ümumtəhsil məktəblərinə, uşaq bağçalarına və digər yaşayış yerlərinə vaxtından tez istilik vermək mümkündür. Amma ataların bir məsəli var: "Xəmir çox su aparar".

Və bir də pandemiya şəraitini istər Nazirlər Kabineti, istərsə də digər qurumlar nəzərə almalıdır. Əgər havalar soyuq keçərsə, heç olmasa noyabrın 15-də yox, 5-də istiliyi vermək olar. Hərçənd ki, "Azəristiliktəchizat" heç də bütün yaşayış sahələrinə, məktəblərə və uşaq bağçalına istiliyi həmişə noyabr ayının 15-də verə bilmir.

Bizim yaşadığım Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki 13 nömrəli binaya istilik noyabr ayının 20-dən sonra verilir. O da bir müddət zəif gəlir, noyabrın axırında istilik təzyiqlə verilir. Və bir də istilik aprelin 15-nə qədər verilmək əvəzinə aprelin 4,5-i kəsilir. Amma əhalidən "Azəristiliktəchizat" tərəfindən həmin pullar tələb olunur.

Havaların soyuması aidiyyatı qurumları ciddi düşündürməli və hava şəraiti bundan da soyuq keçərsə, heç olmasa, noyabrın 5-də Bakıda və digər şəhərlərdə istilik sistemləri, qazanxanalar işə düşməlidir. Düşünsək ki, şimal bölgəsində qar yağıb, havanın temperaturu aşağı enib, həmin bölgələrin istiliklə təchizatı operativ surətdə həll edilməlidir.

**Eləcə də ehtiyac olarsa, Bakıdakı ümumtəhsil məktəblərinə və uşaq bağçalarına mütləq istilik verilməlidir. Binalar, məktəblər və uşaq bağçaları istiliklə təchiz edilərsə, pandemiyanın surətlə yayılmasının qarşısı da xeyli alınmış olar.**

**Faiq QİSMƏTOĞLU**

# Ən qəribə yaşayış yerləri

**Bu möhtəşəm divarlı şəhər, Sana Qubernatorluğu olaraq bilinən bir bölgədə , orta qərb Yəməndəki Haraz Dağları içinə, böyük bir qayalıq üzərində inşa edilmişdir. Tarixi o qədər qədimə söykənir ki, bölgə sakinləri belə ilk məskunlaşanların nə vaxt gəldiyindən əmin deyillər, amma bu tarixin ən azından 12-ci əsrə qədər uzandığı təxmin edilir. Tənha və uzaq olması səbəbiylə 21-ci əsrdə hələ də öz mədəniyyət və ənənələrini qoruya bilmiş vəziyyətdədir. Al Hajarah, tam olaraq "qayadan" mənasına gəlir. Şəhəri əhatə edən torpaqlar nisbətən məhsuldardır və keçi, dəvə, at kimi tipik ərəb heyvanlarına dəstək verən bölgə buğda, arpa və ot böyümək üçün də kifayət qədər yağış alır. Bölgə sakinləri üçün rəqs və ənənəvi musiqi bir bağlılıqdır və olduqca dostca davranırlar.**

Çində beş dənə müqəddəs dağ var. Shanxi əyalətində olan Heng Shan isə bunlardan biridir. Döşəməsinə yaxın meşəlik Qızıl Dragon Çayı olaraq da bilinən Jinlong he'ye baxan ( Xuan Kong Si) Xuankong Si havadakı monastır mənasını verir, ancaq daha sıx olaraq "Asılı Monastırı" olaraq adlandırılır. 491 -ci ildə inşa edilən quruluş müasir memarlar üçün hələ əhəmiyyət ehtiva edən mühəndislik texnikaları istifadə edilərək uçurumun kənarına bərkidilmişdir.



Anadolunun antik bölgəsində yerləşən bu qəribə, amma gözəl yerin dünyanın ən qədim insan yaşayış nümunələrindən biri olduğu düşünülür. İnsanların qayalıq qüllələr və göz qamaşdıran mənzərəsiylə təbii sirrini qoruyan bu qeyri-adi geologiyaya necə şəkil verdikləri və dəyişdirdikləri haqqında inanılmaz bir nümunədir. Bura UNESCO Dünya Miras yeri olaraq təyin olundu və miladdan əvvəl 6. əsrdə İran İmperatorluğunun ən köhnə bölgələrindən biri olduğuna dair qeydlər mövcuddur. Qumdaşı anbarlarının aşınaraq yüzlərlə zəhərli göbələyə bənzəyən möhtəşəm şəklə çevrildiyi insan məskunlaşmalarının bu formasının ən gözəl nümunələri Göreme qəsəbəsindədir. Bununla yanaşı bunlar bölgə sakinləri tərəfindən oyularaq evlərə, monastrlara, kilsələrə və hətta bir polis bölməsinə çevrilmişdir. Hal-hazırda təxminən 2.500 nəfər bir əhaliyə sahib və Türkiyənin ən məşhur tarixi turistik yerlərindən biridir.

Yunanıstanın tam qəlbində və Teselya Düzənliyi kənarında (adı-havada asılı qaya mənasını verir) Meteora yerləşir. Müasir bir söz olaraq istifadə olunan meteor, buradan gəlir. Gerçəkdə isə bunlar, eroziyaya baxmayaraq ayaqda qala bilən, bir zamanlar onları əhatə edən yumşaq vəsait olan ortalama qum daşından yaranan daha sərt kolonlardan ibarətdir. Bu kolonların üzərinə altı dənə dini məkan inşa edilmişdir və Roussanou Monastırı ən çox bilinən strukturlar arasına girmişdir. 1545-ci ildə iki qardaş olan Maximos və İoasaph (Cozef) tərəfindən yenidən inşa edilmişdir və müqəddəs günü 4 dekabr olan Azizə Barbaraya həsr edildi. Qalıqları daha çox divarın içində qalmasına baxmayaraq 1730-1937 illəri arasında tənhalaşdı. Monastır kilsə, modullar, qonaq otaqları, qəbul salonları və sərgi salonundan ibarət olan üç səviyyədən ibarətdir. Həqiqətən təqdir ediləsi, nəzərə dəyər bir yerdir. Təəssüf ki, alt tərəfində olan yeni bir yol bu sirri itirir.

**İnsanların ən qeyri-adi mühitlərdə belə evlərini inşa etmək üçün bir yol tapmaq qabiliyyəti inanılmazdır. Setenil De Las Bodegas məhz belə bir yerdir. İspaniyanın Əndəlüs əyalətində olan tikili minlərlə il geriyə gedən bir keçmişə sahibdir. Buranı xüsusi edən şey isə sakinlərinin keçid divarlarını oyduqdan sonra bu girintilərin içinə evlərini inşa etməsidir. Bunlar Mesoamerikan yerliləri ya da itkin İncil mədəniyyətlərinin tərk etdiyi qalıqlar deyil. Əsrlər boyunca və hələ bu gün istifadə, təkrar-təkrar inşa edilmiş evlərdir. Hələ bir hissəsində evlərin üstlərində bir milyon ton qaya var və o qayaların üzərində də daha çox ev vardır.**

**Eminquey**

# Vaksindən yayınanlar




**Bütün dünya bar-bar bağırır ki, insanlar vaksin vurdurmasa, pandemiyanın qarşısını almaq mümkün olmayacaq. Yəni, bu xəstəlikdən xilas olmağın yeganə yolu vaksindir. Çox təəssüf ki, hələ də bizim məmləkətimizdə bunu anlamayan və başa düşməyən çoxlu adamlar var.**

Əgər belə olmasaydı, yüzlərlə insan saxta vaksin pasportları almazdılar. Hansı ki, onlar da qeydiyyatdan keçir və belələrinin vaksin olunduğu bildirilir. Amma əsl həqiqət odur ki, məmləkətimizdə bəlkə də minlərlə saxta vaksin pasportuna sahib olan adamlar var.

Düzdür, hüquq-mühafizə orqanları saxta vaksin pasportları verən həkimləri cinayət məsuliyyətinə cəlb edir. Amma yaxşı olardı ki, saxta yolla pasport alan vətəndaşlar da cinayət məsuliyyətinə cəlb olunaydılar. Çünki belə olanda hər iki tərəf məsuliyyət daşıyar və bu əmələ qol qoymaz.

Hələ hər iki dozanı qəbul eləmiş insanların sayı ölkəmizdə beş milyona çatmayıb. Mütəxəssislər də deyir ki, əhalinin 80 faizi vaksin olunsa, ölkəmizdə pandemiyanın ocağı sönəcək və bu xəstəliyə yoluxanlar dəfələrlə azalacaq. Üstəlik də vaksin vurdurmuş insanlar xəstəliyi daha yüngül keçirirlər. Ona görə də əhalinin vaksin vurdurmayan təbəqəsi vaxt itirmədən xəstəxanalara getməli, birinci və ikinci dozanı vurdurmalıdır. Bununla biz xəstəlikdən canımızı qurtarmış olarıq.

**Emil FAİQOĞLU**

# Həsrətinin yaşını bilən şairə məktub

## Tahiri Rzanın yeni kitabı barəsində ilk təəssürat

*Əbülfət MƏDƏTOĞLU*

**Bəri başdan deyim ki, Tahir müəllimlə tanışlığımın və sonra da bugünkü dostluğumun kökündə HALAL SÖZ durur. Dünyanın müəyyən hissəsini, sifətlərini gəzib görmüşəm. Necə deyərlər, altmışın kürəyini yerə vurduğumdan dünyadan və onun əməllərindən də az-çox xəbərim var. Ona görə də sözün çəkisini də, onun qiymətini də bir az öyrənmişəm. Bax, elə o bir azın içərisində HALAL SÖZ mənim üçün həmişə önəmli olubdur. İstər söhbətlərimdə, istər yazı-pozumda istəmişəm ki, HALAL SÖZÜN üstünə toz qonmasın. Bu mənada dostlarımın, özümə simsar bildiyim hər kəsin sözündə də həmin nüansları önəmli saymışam və...**

Tahir müəllimin ictimai-siyasi fəaliyyəti seçicilərinə, Azərbaycan mühitinə məlumdur. Amma onun bədii, elmi yaradıcılığı təbii ki, oxucularına, bir də elmi ictimaiyyətə bəllidir. Mən də Tahir Rzanın oxucusu olaraq, onun şeir kitablarının demək olar ki, əksəriyyətini mütaliə etmişəm. Və hətta oxucu kimi də həmin kitablara söhbətlərimdə də, yazılarımda da münasibətimi müəllifə çatdırmışam. Ona görə də Tahir Rza yaradıcılığı barəsində danışmaq, yazmaq mənə çox da çətin deyil. Dediyim kimi, bunun da başlıca səbəbi onun ədəbi mətbəxinə bələd olmağımdır.

Bugünlərdə Tahir müəllimlə yenidən həmsöhbət oldum. Daha dəqiq desəm, onun hələ mətbəə qoxusu canından çəkilməmiş "Həsrətimi yaşı dünya qədərdir" şeirlər kitabı ilə baş-başa qaldım. Həmişəkindən fərqli olaraq, Tahir müəllimin bu kitabındakı şeirlər bir növ qələmə alındığı zamanın ardıcıllığı ilə düzülüb. Yəni, müəllif öz şeirlərini hansısa fəsilə, hansısa mövzu qrupuna ayırmayıbdı. Ona görə də şeirləri oxuduqca tez-tez mövzu baxımından ayrı-ayrı mühitə düşməli olursan. Məsələn, müəllif yazır:

*Bir anlıq çevrilib, keçmişə baxdım,*
*Tarix kül üfürdə gözümə mənim.*
*Köksümdə kükrəyən təşvişə baxdım,*
*Bir kimsə gülmədi üzümə mənim.*

Bu şeirində şair zamanla özünü qarşılaşdırır, dünənlə bugünü üz-üzə gətirir. Və poetik şəkildə bildirir ki, tarix nə qədər təkrarlansa da, hadisələr nə qədər bir-birinə bənzəsə də, amma onların hər birinin hökmü, qərarı, məhz zamanın içərisində güclü olur. Yəni, zamanın hökmünü dəyişmək mümkünsüzdü. Deməli, o adamlar uzaqgörən və qalibdirlər ki, onlar zamanın nəbzini öz nəbzi kimi duyur. Nəticədə də kimsə ilə, hətta tarixin özü ilə də çəkişməli olmur. Və yaxud başqa bir şeirində şair vurğulayır:

*Dərdin heykəlini ucaldan olsa,*
*Baş əyib önündə səcdə edərəm.*
*Vusalım, sevincim dərddən doğulsa,*
*Ən çətin yolları keçib gedərəm.*

İlk baxışdan sadə, həm də poetikdir. Amma məna yükü, təbii ki, ona varsan, görərsən ki, çox tutumludur. Axı dərdin heykəlini heç kim ucalda bilməz. Bu, mümkünsüz bir istəkdir. Onu yalnız Yaradan özü ucaldır və özü də görür. Biz bəndə olaraq, hər birimiz öz boyumuza biçilmiş dərdi biçirik. Lakin şair təkcə öz boyuna biçilmiş dərdi yox, bütövlükdə insanlığın probleminə, qayğısına, yükünə çevrilən dərddən söhbət açır, onun heykəlini görmək istəyir. Ən maraqlısı budur ki, Tahir Rza bununla kifayətlənmir. O, həm də oxucuya bildirir ki, mənim vüsalım, sevincim dərddən doğulub dünyaya gəlsə, mən onun əlindən tutub bütün çətinlikləri yarıb keçərəm. Ona görə ki, özümün olan dərd həm də dayağımdı, həm də güvəncimdi. Bax, mənə görə HALAL SÖZ və onun gücü də məhz budur.

Tahir Rzanın "Həsrətimin yaşı dünya qədərdir" kitabında vurğuladığım kimi mövzular rəngarəngdi. Onun kitabda yer alan qoşmalarında da özünü ifadə həmin o rəngarəngliyin fonunda diqqəti çəkir. Yəni, poeziyamızın bəlli üslublarından biri olan qoşmanın Tahir Rza qələmində yeni nəfəsdə ortaya çıxması az, amma dəyərli yaradıcılıqla məşğul olan şairin sözə yanaşmaq ustalığından, sözə dəyər vermək peşəkarlığından qaynaqlanır. Məsələn, şair yazır:

*Yanır qəlbim yağı - dedim,*
*Dağ çəkməz bu dağı - dedim.*
*Öz-özümə ağı dedim,*
*Güldüm, ağlaya-ağlaya.*

Və yaxud

*İnsansansa fərqinə var,*
*Hər bir sözdə hikmət axtar.*
*Səni görəndə qoysunlar*
*Adam yerinə yerinə.*

Mən dəyərli millət vəkilimiz, dostum, qardaşım Tahir Rzanın bu poeziya çələngi barəsində, necə deyərlər, atüstü, isti-isti ürək sözlərimi, oxucu fikirlərimi sizinlə ona görə bölüşdüm ki, ədəbi mühitimizə şairin bir qom bənövşə ətirli şeirlərinin qonaq gəldiyindən xəbəriniz olsun.




*Tahir RZA*

### Şah əsər

*Azadlığı məlhəm edib yarama qoydum,*
*Qüvvət verdi arzularım qoluma mənim.*
*Bu sevgidən nə yoruldun, nə də ki, doydum,*
*Müstəqillik nur ələdi yoluma mənim.*

*Gülümsədi qoca tarix, sevindi vətən,*
*İnsanların istəkləri kamına çatdı.*
*Milyonların sevinc dolu ürəklərindən,*
*Qopan inam bir möhtəşəm dünya yaratdı.*

*Azərbaycan çalxalandı bir ümman kimi,*
*Haqqı haqqın dərgahına yetirdi zaman.*
*Azərbaycan yenilməyən qəhrəman kimi,*
*Keçdi əsrin təlatümlü sınaqlarından.*

*Silkələdi bütün şərqi, qərbə gəl dedi,*
*Söylədi ki, zalım dünya qüdrətimə bax!*
*Azərbaycan xeyrə xeyir, şərə şər dedi,*
*Öndü haqqın əllərini hamıdan qabaq.*

*Şəhid qanı göyərsə də hər qarışında,*
*Yad önündə yasa batıb əyilə bilməz.*
*Çətin gündə qılıncını saxlamaz qında,*
*Azərbaycan bir günəşdir, ləkə götürməz.*

*Azərbaycan, xoş gələcək, işıqlı səhər,*
*Ulu xalqın iftixarı, şöhrəti, şanı.*
*Azərbaycan, haqq yolunda dayanan əsgər,*
*Ədalətə haraylayır bütün dünyanı.*

*Sinəsində qövr eləyən yaralar ki, var,*
*Torpağımın, millətimin dərdi-səridir.*
*Azərbaycan, xəzan görməz əbədi bahar,*
*Azərbaycan, qoca Şərqin şah əsəridir.*

### Utanıram dünya, sənin yerinə

*Qananları qanmazlara tay edin,*
*Ömrü-günü var-dövlətə pay etdin.*
*Çox insanı tora salıb, zay etdin,*
*Utanıram dünya, sənin yerinə.*

*Yağır etdi nadan, cahil belini,*
*Kəsdin haqqı söyləyənin dilini.*
*Uzatmadın əlsizlərə əlini,*
*Utanıram dünya, sənin yerinə*

*Sinən üstə yalan, böhtan bəslədin,*
*Zülm elədin, ancaq insaf, haqq dedin.*
*Zalımları ədavətə səslədin,*
*Utanıram dünya, sənin yerinə*

*Yetişmədin kasıbların dadına,*
*Ləkə vurdun insanlığın adına.*
*Qızınmadıq atəşinə, oduna,*
*Utanıram dünya, sənin yerinə*

*Anladınmı nə düşündün, nə etdin?*
*Sən qoynunda şeytan, iblis böyütdün.*
*Nə əkmişdin, nə becərdin, nə götürdün?*
*Utanıram dünya, sənin yerinə*

*Haqsız haqqın meydanına girəndə,*
*Əyri düzə düzlükdən dərs deyəndə.*
*Körpələri yetim, yesir görəndə,*
*Utanıram dünya, sənin yerinə*

*Nədən belə özünü məhv edirsən?*
*Bu gedişlə söylə, hara gedirsən?*
*Düşün, daşın bir halına acı sən,*
*Utanıram dünya, sənin yerinə*

### Dərd yetim qalar

*Dərd-kədər sinəmdə düzüm-düzümdür,*
*Hicransız bir ömrün günü ağ olmaz.*
*Dərdim həyatımdır, canım, gözümdür,*
*Onsuz insan kimi yaşamaq olmaz.*

*Həsrətim ələnib Araz boyunca,*
*Həkəri od alır ürək dağımdan.*
*İsa bulağımdan içib doyunca,*
*Keçir Zəngəzurdan, Qarabağımdan.*

*Dünya yüz sifətdə, zaman min donda,*
*Ey insan, halımı soruşma məndən.*
*Yetim körpələrin baxışlarında*
*Dərdimin əksini görə bilərsən.*

*Dünyanın dərdləri birmi, ikimi?*
*Dərddən dörd yanıma qala hörmüşəm.*
*Müdrik insanları qəhrəman kimi,*
*Dərdi çəkə-çəkə gülən görmüşəm.*

*İnsanı dərd, kədər alçaltmaz heç vaxt,*
*Saxta toy-büsatlar ahdır, amandır.*
*Vüsal var taleyə bir quru yamaq,*
*Sevinc var min dərddən dərdi yamandır.*

*Hər dərdə, əzaba dözər ər kimi,*
*Əhdən-sədaqətdən mərd yetim qalar.*
*Yandırıb yaxmayın dərdli qəlbimi,*
*Əgər mən olmasam dərd yetim qalar.*

### Mənim

*Gözümün yaşını yoluna səpdim,*
*Dərd bitdi, qəm düşdü payıma mənim.*
*Sənsiz günlərimin üzündən öpdüm,*
*Xatirən yetişdi hayıma mənim.*

*Gecəm gündüz oldu, günüm qaraldı,*
*Günəşin rəngi də mən tək saraldı.*
*Anamın xonçası boğçada qaldı,*
*Tanrı qol qoymadı toyuma mənim.*

*Bir dəli sevdaya məni qul etdi,*
*Sinəmdən həsrətə, qəmə yol etdi.*
*Sevincə qısqandı, dərdi bol etdi,*
*Baxmadı yaşıma, boyuma mənim.*

*Tahirəm, sirrimi qəsdən yazıram,*
*Vəfasız gözəldən, dostdan yazıram.*
*Nə vaxtdır kədərli dastan yazıram,*
*Gün doğmur, ilimə, ayıma mənim.*

### Söz

*Söz var düşündürür, kəsir səbrimi,*
*Üzümə vurulan şillə kimidir.*
*Söz də var sağ ikən qazır qəbrimi,*
*Qəflətən açılan güllə kimidir.*

*Sözün nizamı var, tərəzisi var,*
*Ona qiymət verən söz qanadlardır.*
*Özünün qədrini bilən adamlar,*
*Ac sözlə çox mətləb qandıranlardır.*

*Mənasız danışsan söz durar üzə,*
*Səni xalq içində xəcalət eylər.*
*Kim ki, ağlı ilə güc vermir sözə,*
*Boş-boş danışmağı bir adət eylər.*

*Qəlblərdə əbədi salıbdır köçün,*
*Sözlər həmsirdaşdır ömürlə, günlə.*
*Bir kəsin ağlını öyrənmək üçün,*
*Sadəcə danışdır, sözünü dinlə.*

*Kimliyim, mənliyim yada düşərsə,*
*Sözümü yad edin, özümdən əvvəl.*
*Əgər gücdən düşüb, adiləşərsə,*
*Siz məni dəfn edin sözümdən əvvəl.*

## TƏBRİK EDİRİK!



**Hörmətli Şəfəq xanım Əliyeva!**

Sizi, Azərbaycan teatr sənətinin tanınmış nümayəndəsini anadan olmağınızın 65 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirik.

Siz zəngin ənənələrə malik olan Gənc Tamaşaçılar teatrında uzun illər müxtəlif səhnə surətləri yaratmış, öz fitri istedadınızla onlara uzun ömür bəxş etmiş xoşbəxt sənətkarlardansınız. Yaddaşlara həkk olunmuş qəhrəmanlarınız tamaşaçıların dərin hörmət və məhəbbətini qazanmışdır. Sizin səhnə fəaliyyətiniz yeni nəsillər üçün əsl vətənpərvərlik, sənətə sədaqət və fədakarlıq nümunəsi olmuşdur. Azərbaycan teatr və kino rejissoru, aktyor, SSRİ-nin Xalq artisti, mərhum sənətkarımız Adil İsgəndərovun yetirməsi kimi bir çox yerli filmləri səsləndirmiş, əcnəbi filmlərin isə dublyajında iştirak etmisiniz.

Azərbaycan teatr sənətinin inkişafındakı xidmətləriniz ölkə başçısı tərəfindən yüksək qiymətləndirilərək "Əməkdar artist" fəxri adına layiq görülmüsünüz.

**Sizi Gənc Tamaşaçılar teatrının kollektivi və "Cabir Novruz" Mədəniyyət Fondu adından təbrik edir, möhkəm cansağlığı, yeni böyük yaradıcılıq uğurları arzulayırıq.**

**Elşad Dağlı**
**"Cabir Novruz" Mədəniyyət Fondu**
**Mətbuat Xidmətinin rəhbəri, AJB-nin üzvü**

## "Zəfər klubu"nun fəaliyyəti



**Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsinin qaliblərdinən biri olan Vətən Müharibəsi iştirakçısı, şair Emin Piri ATV telekanalının qonğı olub.**

O, layihə haqqında da məlumat verərək, "Zəfər klubu"nun gələcək fəaliyyətindən, Təhsil Nazirliyinin bu işdəki rolundan bəhs edib.

**Cavid Piri**

## Azərbaycanlı aktrisa türk həmkarı və nişanlısı ilə fotolarını paylaşdı: İzləyicilər isə...





**Türkiyədə fəaliyyət göstərən azərbaycanlı aktrisa Nəsrin Cavadzadə sevgilisi, "Yasak alma" serialından tanış olduğu aktyor Gökhan Alkanla nişanlandıqdan sonra tez-tez birgə fotolarını paylaşır. Hətta aktrisa "Eşq deyiləndə ilk ağlınıza gələn nədir" sualına belə cavab verib:"Cəsarət, qorxaqlar aşiq ola bilməz".**

Adalet.az xəbər verir ki, Nişanlı cütlüklər yenidən fptplarını paylaşıblar. Onların sosial şəbəkə hesabında paylaşdıqları fotolar izləyicilərin tərif və təbrikinə tuş gəlib

Qeyd edək ki, Nəsrin 1982-ci il iyulun 30-da Bakıda anadan olub. 11 yaşında ailəsi ilə birlikdə Türkiyəyə gedib.

Mərmərə Universiteti Kino və Televiziya Fakültetinin məzunudur. Şahika Tekand Studio Oyunçularında 2 il aktyorluq təhsili alıb.

2007-ci ilin ATV'nin "Yersiz Yurdsuz" adlı serialında oynadı. Ertəsi il Hüseyn Qarabəyin "Getmək: Mənim Marlon və Brandom" və Camal Şanın "Dilbərin Səkkiz Günü" adlı filmlərində iştirak etdi. Daha sonra "Kiçik Ağa" adlı serialda rol aldı. 2014-cü ildə çəkildiyi "Quzu" adlı filmdə canlandırdığı Mədinə obrazı ilə 51-ci Antalya Qızıl Portağal Film Festivalının Ən Yaxşı Qadın aktrisa mükafatına layiq görüldü.

Nəzrin Cavadzadə görkəmli alim Mirməmməd Cavadzadənin nəvəsidir. Mirməmməd Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanana onun adını daşıyır.

**Əntiqə Rəşid**

# Pikasso - qadınları intihara sürükləyən dahi

**İtaliya intibahının dahi nümayəndəsi Leonardo Da Vinçinin "Mono Liza" tablosu 1911-ci ildə oğurlanır. Lakin 2 il sonra Florensiyada tapılsa dasoyğunla əlaqədar sorğulananlar arasında məşhur rəssam Pablo Pikasso da vardı…**

Kimdi Pikasso?

Pablo Pikasso 1881-ci ildə İspaniyanın Malaqa şəhərində anadan olub. Doğularkən zəiflikdən səsi belə çıxmayan körpəni tibb bacısı ölü zənn edir.

Bu bəd xəbəri rəssamın anasına çatdırmaq üçün onu çarpayının üzərinə qoyub otaqdan çıxır. İçəriyə daxil olan tütün aşiqi əmisi körpəni qucağına götürür və çəkdiyi siqarın tüstüsünü onun

bəmbəyaz, rəngsiz üzünə üfürür. Bu zaman körpə özünə gəlir, canlanır və bərkdən ağlamağa başlayır. Xaç suyuna salınarkən isə rəssama verilən ad nə az, nə çox, düz 23 sözdən - Pablo Diego Jose Francisco de Paula Juan Nepomuceno Maria de los Remedios Cipriano de la Santisima Trinidad Martyr Patricio Clito Ruiz y Picasso - ibarət idi. Bura rəssamın müxtəlif əcdadlarının və müqəddəslərin adları daxil idi.

Pikasso uşaqlığından gəncliyinədək realistik tərzdə rəsmlər çəkməklə əsrarəngiz incəsənət bacarığı nümayiş etdirib.

***Nə qədər qəribə olsa da, körpə Pablonun dil açdığı zaman dediyi ilk söz də karandaş olub. (İspanca "lapiz" - qısa formada "piz"). Doqquz yaşında Pikasso özünün ilk sona çatdırılmış əsərini çəkir. "Le picador" adlanan rəsm əsərində at üstündəki çapar və ətrafındakı döyüş öküzləri əks olunub. Pikassonun atası Xose Ruiz Blasko sənətşünas idi və boş vaxtlarında rəsmlər çəkirdi. Pablo 7 yaşında olarkən atası ona rəsm çəkməyi öyrətməyə başlayır. Qısa zamanda bütün müəllimlər balaca dahiyə dərs verməkdən imtina edirlər. Səbəb isə çox sadə idi - Pablo rəssamlıqda müəllimlərdən daha çox bilir və daha istedadlı idi. Artıq 13 yaşına çatanda balaca Pablonun atası oğlunun bu istedadının qarşısında baş əyir, bir daha rəsm çəkməməyə söz verir və bütün ləvazimatlarını ona hədiyyə edir. İlk akademik əsəri isə 15 yaşında çəkdiyi "First Communion"dur. Əsərdə rəssam öz atası, anası və bacısının rəsmini işləyir. Sözsüz ki, Pablo oxuduğu illərdə özündən bir neçə yaş böyük tələbələr arasında ən savadlısı və istedadlısı idi.***

1894-1895-ci illərdə gənc Pablo La-Korunya, 1895-ci ildə isə Barselona incəsənət məktəbinə daxil olur. 20 yaşına kimi atasının - Ruiz Blasko - adı ilə işləyir, lakin sonradan adətə əsasən anasının qızlıq soyadını - Pikassonu - götürür.

1897-ci ilin sentyabrayında Madridə yollanan Pikasso San-Fernand Akademiyasına daxil olur. 1898-ci ildə isə Pablo Barselonada "Els Quatre Gats" kafesində fəaliyyət göstərən rəssamlar cəmiyyətinə üzv olur və 30 yaşında özünün ilk sərgisini məhz bu kafedə nümayiş etdirir.

Amma gənc dahi müəllimlərinin yaddaşında ən nadinc və intizamsız tələbə kimi qalıb. Çünki Pikasso həmişə müəllimlərinin ona nə edib, nə etməyəcəyini göstərəndə, nəyisə əmr edəndə çox hirslənirdi və buna görə də vaxtının çoxunu məktəbdə "həbsdə" keçirirdi. "Calaboose" adlanan 4 ağ divar və oturacaqlardan ibarət otağa uşaqları öz səhvlərini başa düşmək üçün salırdılar. Pikasso isə buranı sakitliyinə görə çox sevir, şəkil çəkmək üçün istifadə edir və çölə çıxmaq istəmirdi. Yeri gəlmişkən, Pikasso həmişə yuxudan çox gec oyanır, gündüz vaxtını dostları ilə keçirir, dünya incisi əsərlərini isə gecələr, şam işığında işləməyi sevirdi. Parisdə isə ömrünün ən kasıb günlərini keçirən Pikasso bəzən əsərlərini odun əvəzinə yandırırdı.

XX əsrin ilk onilliyində yeni mülahizələri, texnikaları və düşüncələri ilə təcrübə apardığından onun incəsənətdə istiqaməti dəyişib. Pikassonun yaradıcılıq bacarığı özünü rəssamlıq, heykəltəraşlıq və dizaynla yanaşı, digər çoxsaylı təsviri və tətbiqi-incəsənət sahələrində də göstərirdi. Onun yaradıcılıqda çevriliş etmiş nailiyyətləri ona dünya şöhrəti və həyatı boyu sərhədsiz uğurlar gətirib ki, bu da onu XX əsr incəsənətinin ən məşhur şəxsiyyəti



edib. Adı bəşəriyyətin 100 dahi şəxsiyyəti siyahısına daxil edilib. Buna görə də o cəzalandırılıb.

### "Mavi" və "Çəhrayı" dövrlər

1900-cü ildə Pikasso dostu Kasagemasla Parisə yollanır. Pablo Pikasso məhz burada impressionalistlərin yaradıcılığı ilə tanış olur. Ömrünün bu illəri müxtəlif çətinliklərlə müşayiət olunur, dostu Kasagemasın intiharı isə gənc rəssamı dərindən sarsıdır. Məhz bu şəraitdə 1902-ci ilin əvvəlində sonralar "mavi dövr" adlandırılacaq üslubda əsərlər işləməyə başlayır. Pikasso bu üslubu 1903-1904-cü illərdə Barselpnaya dönüşündən sonra işləyib. Bu dövrə aid əsərlərində yoxsulluq, melanxoliyanın və kədərin xarakterik obrazları olan qocalıq və ölüm kimi mövzular açıq-aydın ifadə olunur, insanların hərəkətləri də çox yavaşıyıb ("Absent həvəskarı", 1901; "Görüş", 1902, "Gənc və Dilənçi qoca", 1903). Çünki, Pikassoya görə dərdli adam daha səmimi olur. Rəssamın palitrasında mavi çalarlar üstünlük təşkil edir. İnsan iztirablarını əks etdirən Pikasso bu dövr əsərlərində korlar, dilənçilər, əyyaşlar və fahişələri canlandırırdı. Onların bir qədər uzunsov bədənləri ispan rəssamı El Qrekonun əsərlərini xatırladırdı.

***Məşhur "Şar üzərində qızcığaz" əsəri "mavi" və "çəhrayı" dövrlər arasındakı keçid mərhələsinə aiddir.***

Pikasso 1904-cü ildə Parisdə məskunlaşır. "Çəhrayı dövr" adlandırılacaq yeni mərhələ açılır. Bu illərdə "mavi dövrün" qəm və kədəri teatr və sirkin daha canlı obrazları ilə əvəzlənir. Rəssam əsərlərində çəhrayı-qırmızımtıl və çəhrayı-bozumtul çalarlara üstünlük verir. Əsərlərin personajlarına gəldikdə bunlar bir qayda olaraq sərsəri komediantlar, rəqqaslar və akrobatlar idilər. Bu dövr əsərləri sərsəri komediantların romantikadan məhrum olan faciəvi tənha həyatlarını əks etdirirdi ("Akrobat ailəsi meymunla", 1905).

### Kubizm

Rənglərlə eksperimentlərdən və əhval-ruhiyyənin ötürülməsindən formaların analizinə keçən Pikasso Sezanın birtərəfli interpretasiyası və Afrika heykəltaraşlığını yeni janra çevirir. 1907-ci ildə Jorj Brakla görüşən Pikasso naturalizm və incəsənətin təsviri-idrak funksiyasını inkar edən bədii cərəyan olan kubizmin əsasını qoyur.

***Pikasso formaların həndəsi bloklara çevrilməsinə xüsusi diqqət ayırır (Horta de Ebroda fabrik, 1909), həcmləri artırır və sındırır (Fernand Olivyenin porteri, 1909), onları müstəvi və səthlərə bölərək fəza boyu uzadır (Kanveylerin portreti, 1910). Pikassonun rəsmlərində perspektiv itir, palitra monoxromluğa meyil edir. Kubizmin ilkin məqsədi ənənəvi üsullardan fərqli olaraq məkan və kütlənin ağırlıq hissini ifadə etmək olsa da, Pikassonun rəsmləri tez-tez anlaşılmaz müəmmalara aparıb çıxarır. Reallıqla əlaqəyə qaytımaq üçün isə Pikasso və Brak əsərlərinə tipoqrafik şriftlər daxil edir, divar kağızı, qəzet parçaları, kibrit qutuları kimi elementlərdən istifadə edirlər. Onların əsərlərində bir qayda olaraq musiqi alətləri, tütün tənbəkisi və qutusu, notlar, araqla dolu şüşələr və bu kimi əsrin əvvəlində bohemaların həyat tərzinə xas olan atributlar üstünlük təşkil etməyə başlayır.***

Kompozisiyalarda "kubistik kriptoqrafiya" - şifrələnmiş telefon nömrələri, evlər, sevgililərin adı, küçə adları yazılmış kağız parçaları, qəlyanaltılar meydana gəlir. Kollaj texnikası kubistik prizmaların kənarlarını daha böyük müstəvilərdə birləşdirir (Gitara və skipka, 1913) və ya çox rahat və yumoristik tərzdə tapıntını büruzə verir (Qızın portreti, 1914). "Sintetik" dövrdə təmkinli kompozisiyalarla koloritin harmonizasiyasına cəhd edilir. Pikassonun yaradıcılığında kubistik dövr onu Jorj Brakdan ayıracaq I Dünya Müharibəsinin başlanmasından az sonra bitir. Lakin buna baxmayaraq Pikasso bir çox əsələrində bu üsluba yendən müraciət edir (Üç musiqiçi, 1921).

Pikasso bu günədək həyatından ən çox qadın keçmiş və həddən artıq çox sevgilisi olan tək rəssamdır. Qadınlar ona işləmək, yaratmaq üçün hava-su kimi lazım idilər. Onun istedadı dövrünün ən gözəl qadınlarının diqqətini asanlıqla cəlb edirdi. Sonra isə bu gözəlçələr dahinin qurbanına çevrilirdilər, çünki Pikasso heç bir zaman qadınlara canlı varlıqlar kimi baxmırdı. Fernanda Olivye rəssamın "Çəhrayı dövrü" nün əsas muzası və Pikassonu "gitara formalı qadın obrazı" yaratmağa ilhamlandıran ilk qadın idi. Amma az keçmir ki, qadının qabarıq bədən formaları rəssamı yorur və onu Eva Quel əvəz edir. Fernandanın qabarıq ölçülərindən fərqli olaraq, Evanın miniatür forması rəssamı məst edir və o, Evanı uzun müddət dayanmadan çəkir. 1917-ci ildə Sergey Diaghilev Pikassonu "Parad" baletini formalaşdırmağa dəvət edir. Elə bu zaman rəssam yeni ilham pərisi, balerinalardan biri Olqa Xoxlova ilə tanış olur və ona aşiq olur.

***Münasibətlər o qədər ciddi olur ki, Serqey Diaghilev Pikassoya xəbərdarlıq edir: "Ehtiyatlı ol, Olqa rus qızıdır, rus qızları ilə isə zarafat olmur, onlarla ancaq evlənmək olur". Evlənmək fikri Pabloya çox maraqlı gəlir və o, general qızı Olqayla evlənir. Balerina Pikasso üçün gözəl ilham pərisi və model olmağı bacarsa da, yaxşı həyat yoldaşı ola bilmir. Olqa tez vəfat edir və ölənə kimi də rəssamın arvadı olaraq qalır, Pikasso isə onun dəfninə belə getmir.***

50 yaşında olarkən yağışlı bir gündə metrodan çıxıb sürətlə qaçan gənc qızın cavanlığı və təravəti Pikassonu cəlb edir. 17 yaşlı Mariya Tereza Valter həmin an rəssamın atelyesinə model kimi dəvət edilir və 3 gündən sonra onlar sevgili olurlar. Nə qədər gözlənilməz olsa da, onların münasibəti 10 il davam edir. "Mən cavan xanımla yaşadığım müddətdə özüm də cavan qalıram", - deyən Pikasso-nun yeni sevgilisi özündən 40 yaş balaca Fransuaza Jila olur.

Sevdiyi qadınlara əzab verməyi və onların ağrılarını çəkməyi sevən rəssam iki dəfə Fransuazanı ana olmağa sövq edir və onun necə eybəcərləşəcəyini görmək istəyir. İki doğumdan sonra isə artıq sevgilisi xoşuna gəlmir, əsərlərində onun eybəcərliklərini göstərməklə qadını qıcıqlandırır və Fransuaza Pikassonu özü tərk edən yeganə qadın olur.

**Hər zaman olduğu kimi, yeni və daha cavan qadına ehtiyacı olan Pikasso özünün həyatındakı sonuncu qadını və ikinci qanuni arvadını 72 yaşında tapır. 27 yaşlı Jaklin Rok onun hər istədiyini yerinə yetirir, "mənim hökmdarım" deyə müraciət edir və onu ideallaşdıracaq şəkildə əllərindən öpürdü. Pikasso 91 yaşında həyatdan köçdü və özündən sonraya dəyəri 1.1 milyard dollar qiymətləndirilən 50 min-dən çox şəkil, qravüra, skulptur, keramika işləri qoydu. Ən qəribəsi isə odur ki, rəssamın ölümündən sonra sevgililəri Mariya Tereza Valter və Jaklin dəintihar edirlər.**

**İLTİFAT**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 136
Çapa imzalanmışdır:
27.10.2021